# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

17-18 (112-113) 15 oktyabr 2018-ci il XÜSUSI BURAXILIŞ İctimai-siyasi qəzet


*Veteranların təcrübəsindən biz daim bəhrələnməliyik, istifadə etməliyik. Həm cəbhədə, həm də arxada çalışmış, şücaətlər, əmək fədakarlığı göstərmiş veteranların qəhrəmanlığı Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.*

*Heydər Əliyev*



## *Əziz veteranlar, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının 30 illik yubileyi münasibətilə sizi təbrik edirik!*

30

17-18 (112-113) 15 oktyabr 2018-ci il Xüsusi buraxılış AZƏRBAYCAN VETERANI

# Veteranlara göstərilən diqqət və qayğı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır

*“Veteranlar bizim fondumuzdur.Onlar hər cür qayğıya və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, II Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır”.*

XX əsrin sonları Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi və xalqımızın tarixi taleyində müstəsna əhəmiyyətli dövr kimi əbədiləşmişdir. Məlum olduğu kimi bu dövr asan olmamış Azərbaycan üçün təlatümlü illər kimi tarixə yazılmışdır. Azərbaycanın Böyük dövlət xadimi Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkəmizin bütün sahələrində böyük dəyişikliklər, islahatlar dövrü başlanmışdır. Hüquqi dövlət quruculuğunun vüsət alması, müasir dövlət təsisatlarının formalaşdırılması gərgin əmək hesabına başa gəlmişdir.

Müstəqilliyin ilk illərində keşməkeşli bir dövr yaşayan Azərbaycan Respublikası bir sıra çətinliklərlə qarşılaşdı. Bu dövrdə Azərbaycanın qarşısında çox böyük vəzifələr dururdu. Birincisi ölkə daxilində xaos, çaxnaşma və təbəddülatlara son qoyulmalı və sabitliyə nail olmaq lazım gəlirdi, yalnız bundan sonra Azərbaycanın xarici siyasətini qurmaq və ölkəni dünyaya sülhsevər və demokratik dövlət kimi təqdim etmək olardı. Bu



zaman ermənilərin mürtəce təbliğatı nəticəsində beynəlxalq aləmdə Azərbaycanın mənfi obrazı formalaşdırılırdı, təcavüzkar Ermənistan ərazilərimizi işğal etməsinə baxmayaraq özünü zərərçəkən tərəf kimi təqdim etməsi vəziyyəti daha da çətinləşdirmişdi. Qətiyyətsizlik və hərc-mərclik girdabına sirkələnən respublikamızı Ümummilli lider Heydər Əliyevin uzaqgörən, müdrik siyasəti qurtardı, respublikamıza yeni nəfəs verdi. Heydər Əliyev müstəqil respublikamızın dövlət başçısı seçildi.

Heydər Əliyev Azərbaycana uzun müddət rəhbərlik etmiş bir şəxs kimi ölkənin daxili və xarici siyasətinin prioritet məsələlərini dərindən bilirdi. Lakin zaman o zaman deyildi. Tarixi yenidən yazmaq lazım gələcəkdi və Heydər Əliyev bu tarixi yazdı. Ulu Öndər Heydər Əliyev hər bir azərbaycanlını düşünürdü, onun siyasətinin əsas qayəsində azərbaycançılıq ideologiyası dayanırdı. Azərbaycan xalqının birliyinin təcəssümü olan bu ideologiya sabahımızın nurlu işığı olmuşdur.

Heydər Əliyev tərəfindən ziyalılar, veteranlar, ağsaqqalar həmişə xüsusi diqqət və qayğı ilə əhatə olunmuşdur. Ulu öndər iştirak etdiyi hər bir tədbirdə veteranlarla görüşər onları dinləyər, veteranların problemlərinin həll edilməsini vacib məsələlərdən hesab edərdi.

Ulu öndər hakimiyyətə qayıdışının ilk illərində veteranlar haqqında mühüm sərəncamlar verdi, Böyük Vətən müharibəsi veteranlarının imtiyazlarını geri qaytardı. 9 may Qələbə bayramının dövlət səviyyəsində yenidən qeyd edilməsi Veteranlar haqqında qanunun işlənib hazırlanması, Veteranların sosial məişət şəraitinin yaxşılaşdırılması üçün görülən əsaslı tədbirlər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev Azərbaycan xalqının müstəsna xidmətləri olduğunu, qəhrəman oğul və qızlarımızın canları, qanları, yorulmaz əməyi bahasına eləcə də, Bakı nefti ilə Faşizm üzərində Qələbənin əldə edilməsinin təminatçısı olduğunu hər zaman iftixarla vurğulamışdır.

1996-cı ilin 9 may Qələbə günündə Ulu öndərin Azərbaycan Prezidenti Heydər Əliyevin tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun Bakıdakı məzarı yanında xatirə mitinqində çıxışını hər bir veteran xatırlayır. “Azərbaycanın on minlərlə, yüz minlərlə qəhrəman oğulları alman faşizminin qarşısına çıxaraq, Sovet Ordusunun tərkibində Vətənin müdafiəsində həlak olmuşdur. Həlak olanların ruhunu bu gün biz böyük minnətdarlıq hissi ilə yad edirik. Həzi Aslanov da o həlak olanlardan biridir, o qəhrəmanlardan biridir.

Bu gün Azərbaycanın bütün guşələrində Böyük Vətən müharibəsinin qəhrəmanları xatırlanır, bu müharibədə çalınmış zəfər şərəfinə şəhər və qəsəbələrdə ucaldılmış abidələr önündə Qələbə bayramı qeyd olunur. Biz bu bayramı böyük iftixar hissi ilə qeyd edirik. Çünki Azərbaycan



xalqı öz qəhrəman oğullarının cəbhədə igidlikləri ilə bu qələbənin çalınmasında böyük xidmət göstərmişdir, bu qələbədə onun böyük payı var. Eyni zamanda Azərbaycan xalqı Sovet Ordusunun və ümumiyyətlə, o vaxt alman faşizminin təcavüzünə qarşı ayağa qalxmış bütün ölkənin, bütün xalqın neft ilə, neft məhsulları ilə təmin olunmasında, bu qələbənin çalınmasında arxa cəbhədə xüsusi xidmətlər göstərmişdir. Ona görə də bu Qələbə bayramını hər il qeyd etməyə mənəvi haqqımız var. Bu, bizim əziz bayramımızdır. Çünki, bir daha qeyd edirəm, on minlərlə, yüz minlərlə azərbaycanlı, Azərbaycan oğulları bu qələbənin əldə olunması uğrunda canlarını qurban vermişlər”.

Ulu öndərin II Dünya müharibəsi veteranları ilə görüşləri ənənə halını almışdır. Bütün görüşlərdə Azərbaycan xalqının qəhrəmanlıq tarixinin ayrılmaz hissəsi olan 9 may Faşizm üzərində qələbəninin tarixi əhəmiyyətindən danışar, erməni faşizmini isə ən qəddar faşizm nümunəsi kimi qiymətləndirirdi. “Müharibənin məşəqqətlərini və məhrumiyyətlərini görmüş xalqımız yeni qanlı müharibələrin və münaqişələrin əleyhinə çıxış edir, müstəqil Azərbaycan dövləti regionda və bütün dünyada möhkəm və davamlı sülhün bərqərar olması uğrunda ardıcıl mübarizə aparır. Biz qonşu dövlətin ərazi iddiaları nəticəsində başlanmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc şəkildə, danışıqlar yolu ilə həllinə tərəfdarı olduğumuzu dəfələrlə bəyan etmişik. Biz inanırıq və İkinci Dünya mıharibəsinin tarixi də göstərir ki, zora söykənən siyasət, işğala və təcavüzə əsaslanan, başqa xalqlara nifrət və düşmənçilik təbliğ edən ideologiya gec-tez məhvə məhkumdur”.

Ulu Öndər Heydər Əliyev veteranların respublikamızın ictimai siyasi işlərdə fəaliyyətini yüksək qiymətləndirmişdir. Onlar təcrübələrinin gənc nəslə çatdırılmasının, gənclərin vətənpərvər ruhda tərbiyə almasında veteranların əməyindən istifadə edilməsinin zəruriliyini bildirirdi. Bu, yaşayan tariximizə-Böyük Vətən müharibəsi veteranlarına göstərilən etimadın təcəssümü idi. “Siz bilin, bu gün də, müstəqil Azərbaycanın gələcək nəsilləri də sizləri sevəcək, həmişə sizlərə hörmət edib və edəcəklər. Siz bu gün Azərbaycanın həyatında fəal iştirak edirsiniz, müstəqil Azərbaycanın dövlət quruculuğu prosesində öz təcrübənizi, biliklərinizi əsirgəmirsiniz. Mən bütün bunlara görə sizə təşəkkür edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, siz, müharibə veteranları Azərbaycanın hörmətli, ağsaqqal insanları bundan sonra da müstəqil Azərbaycanın dövlətçiliyinin qorunmasında, dövlətçiliyin inkişaf etdirilməsində fəal iştirak edəcəksiniz və öz xidmətlərinizi göstərəcəksiniz.

Mən sizə öz hörmət və ehtiramımı bildirirəm. Sizin hamınıza keçmiş xidmətlərinizə görə, Böyük Vətən müharibəsində göstərdiyiniz qəhrəmanlıq nümunələrinə görə, tökdüyünüz qanlara görə bütün Azərbaycan xalqı, dövləti adından təşəkkür edirəm”.

Məhz bütün deyilənlərin nəticəsidir ki, veteranlar Ümummilli liderin amallarını hər zaman yaşadırlar. Ulu öndərin siyasi kursuna sadiq olaraq, Heydər Əliyevin timsalında vətənpərliyi gələcək nəslə səy və əzmlə təbliğ edirlər.

# ULu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev veteranların dayağıdır

*“Biz veteranlarımıza çox mehriban münasibət bəsləyirik. ... Onlar xalqımızın fəxridir. Biz həlak olanların xatirəsinə də ehtiramla yanaşırıq və əminik ki, gənc nəslin qəhrəmanlıq və Vətənə məhəbbət ənənələrini davam etdirməsi üçün onlar məhz bu cür fədakar qəhrəmanlıq və Vətənə məhəbbət ruhunda tərbiyə olunmalıdırlar”*

2003-cü ildə “Zəngin və qüdrətli Azərbaycan uğrunda” çağırışı ilə milyonları öz ətrafında toplayan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti ilə Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesi daha da müvəffəqiyyətlə həyata keçirilməyə başlandı. Dövlət başçısının xidmətləri ilə Azərbaycanda demokratik prosesi sürətləndirən siyasi islahatlar dönməz xarakter aldı.

Prezident vəzifəsində fəaliyyətə başladıqdan dərhal sonra dövlət başçısı cənab İlham Əliyev əhalinin həyat səviyyəsinin yüksəldilməsində müstəsna rol oynayan fərmanlar imzaladı. İnsan hüquqlarına hörmət edilməsi, onlara qayğı ilə yanaşılması bütün dövlət strukturlarının əsas məqsədi kimi müəyyən edildi. Ulu Öndər Heydər Əliyev siyasi kursuna sadiq prezident İlham Əliyev Veteran Hərəkatının geniş füsət almasına, veteranların maddi-sosial təminatının yaxşılaşdırılması üçün lazımi tədbirləri görür. Azərbaycanda bütün qəbildən olan veteranların mənzil şəraiti yaxşılaşdırılmış, müavinətləri artırılmış, cəmiyyətə ineqrasiyaları məqsədi ilə lazımi tədbirlər görülmüşdür. Prezident İlham Əliyev nəyinki veteranları eləcə də, onların birləşdikləri təşkilat və qrumları da daim diqqət mərkəzində saxlayır.

Böyük Vətən müharibəsində Qələbənin 60 illik yubileyinə həsr olunmuş mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev söylədiyi niqtdə bütün deyilənlər öz əksini tapmışdır. “Hər bir vətəndaş, hər bir insan, xüsusilə vəzifəli şəxs sizə böyük diqqət və qayğı göstərməlidir. Mən tabeliyimdə olan bütün məmurlara da tapşırmışam ki, sizin problemlərinizlə məşğul olsunlar, lazımi işləri görsünlər ki, siz rahat yaşayasınız. Sizin buna haqqınız çatır. Siz Azərbaycan xalqının rifahı naminə fədakarcasına çalışmısınız.

İkinci Dünya müharibəsi bəşər tarixində ən dəhşətli müharibə idi, ən qanlı müharibə idi. Azərbaycan Sovet İttifaqı tərkibində bu müharibədə fəal iştirak etmişdir. 700 minə yaxın Azərbaycan vətəndaşı müharibədə iştirak etmiş, qəhrəmancasına vuruşmuş, onların yarısı geri dönməmiş, həlak olmuşdur. Bu, böyük qəhrəmanlıqdır. Heç kim bu qəhrəmanlığı unutmamalıdır. İkinci Dünya müharibəsindən sonra, qələbədən sonra Avropada yaşayan bir çox xalqlar azadlıq əldə etmişlər. Ancaq Azərbaycanın əsl azadlığı müstəqilliyimiz bərpa olunandan sonra əldə edildi. Ağır, çətin dövrdə Azərbaycan müstəqil dövlət kimi yaşamağa başlamışdır.

Müstəqilliyimizin ilk illəri də ölkəmiz üçün çox çətin keçirdi, böyük təhlükələr mövcud idi. Yalnız və yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıdışından sonra vəziyyət dəyişdi, bütün təhlükələr aradan götürüldü və ölkəmiz inamla inkişaf etməyə başladı.

Bu illər ərzində, son 10-11 il ərzində Azərbaycan böyük uğurlar əldə etmişdir. Ölkəmiz dünyadakı mövqelərini möhkəmləndirmiş, iqtisadi islahatlar prosesi daha da sürətlənmişdir. Bu gün Azərbaycan regionda tutduğu mövqelərə görə lider ölkədir. Bilirsiniz ki, İkinci Dünya müharibəsində arxa cəbhədə fəaliyyət göstərən insanların əməyindən çox şey asılı idi. Onu da hamımız bilirik ki, İkinci Dünya müharibəsi motorlar, tanklar, təyyarələr müharibəsi idi.



O vaxt Sovet İttifaqının neft potensialının demək olar ki, böyük əksəriyyəti Azərbaycanda cəmləşmişdi. Sovet İttifaqında hasil olunan neftin 75 faizini Azərbaycan neftçiləri çıxarmışdı. Həmin neft emal olunub, yanacağa çevrilib ümumi qələbəmizə xidmət etmişdir. Bunu indi hamı etiraf edir, bütün dünyada etiraf edirlər ki, əgər Azərbaycan nefti olmasaydı, müharibənin nəticələri tam başqa ola bilərdi.

Ön cəbhədə vuruşmuş, arxa cəbhədə çalışmış bütün insanlar böyük hörmətə layiqdirlər. Gələcək nəsillərin formalaşması üçün sizin nümunəniz çox önəmlidir. Bizim gənc nəslimiz vətənpərvərlik ruhunda tərbiyə olunmalıdır, böyüməlidir. Bu istiqamətdə sizin müharibədən sonrakı fəaliyyətiniz, o cümlədən ictimai fəaliyyətiniz böyük əhəmiyyət kəsb edir. Mən çox şadam ki, Azərbaycanda xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş ənənələr bu gün davam etdirilir. Bilirsiniz ki, müstəqilliyimizin ilk illərində bəzi qüvvələr 9 May bayramını da ləğv etmək istəmişdilər və veteranlara münasibət dəyişmişdi. Biz bunu indi də bəzi ölkələrdə görürük. Görürük ki, bəzi ölkələrdə veteranlara münasibət o qədər də ədalətli deyildir. Amma xalqımızın ümumummilli lideri 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdandan sonra vəziyyət tamamilə dəyişdi, bütün o mənfi meyillər aradan götürüldü və veteranlara layiq olduqları münasibət göstərilməyə başladı. Ədalət bərpa edildi və 9 May Qələbə günü Azərbaycanda geniş qeyd olunur. Bu gün bu siyasət Azərbaycanda davam etdirilir”.

9 may Qələbə günündə veteranlarla görüşmək onlarla səmimi söhbət etmək artıq adət halını almışdır. Hər bir görüş əlamətdar və yaddaqalan olmuşdur. Bu gün məhz prezident İlham Əliyevin diqqəti və qayğısının nəticəsdirki Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının beynəxalq standartlara cavab verən, yüksək səviyyəli inzibati bina ilə təmin edilmişdir. Açılış mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak etməsi veteranlara göstərilən yüksək etimadın nəticəsi idi. Günü-gündən fəaliyyətini genişləndirən Respublika Veteranlar Təşkilatı Prezident İlham Əliyevin diqqət və qayğısını hər zaman hiss etməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin açılış mərasimindəki çıxışını yaxşı xatırlayırıq. Cənab Prezident veteranlara göstərilən diqqət və qayğıdan bəhs etməklə yanaşı veteranların üzərinə düşən məsuliyyətli vəzifədən də bəhs etmişdir. Gənclərin vətənpərvərlik tərbiyəsində, erməni faşistlərinin törətdikləri cinayətlərin dünya ictimaiyyətinə çatdırılması, eləcə də, ermənilər “qəhrəman” adlandırdıqları faşist qəsbkarlarının ifşasında veteranların əməyindən istifadə edilməsinin zəruriliyini tövsiyə etmişdir. “Ən yüksək standartlara cavab verən bu mərkəzdə veteranlar çalışacaqlar. Burada bütün şərait yaradılıb və biz bunu qısa müddət ərzində etmişik. Yəni, bu, bir daha onu sübut edir ki, Azərbaycan dövləti öz veteranlarına böyük qayğı və diqqət göstərir. Veteranlar yüksək mükafatlarla təltif olunur, onlara minik maşınları verilir. Növbədə duran bütün veteranlara avtomobillərin verilməsi prosesi bu il başa çatacaq. Mənzillər, pul mükafatı verilir. Onu da qeyd etməliyəm ki, MDB məkanında ən yüksək pul mükafatı məhz Azərbaycanda verilir. Siz buna layiqsiniz. Siz Vətəni müdafiə etmisiniz, qəhrəmanlıq göstərmisiniz və Azərbaycan dövləti sizin fəaliyyətinizi çox yüksək qiymətləndirir.

Biz bütün bu tarixi faktları bilirik. Bizim gənc nəslimiz də, dünya da bilməlidir. Biz Azərbaycanın faşizm üzərində Qələbənin əldə edilməsindəki müstəsna rolu haqqında danışırıq, danışacağıq və bundan sonra da bu tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdıracağıq.

Əfsuslar olsun ki, bu gün faşizm ideologiyası bəzi yerlərdə yenə də baş qaldırır. Biz buna imkan verə bilmərik, biganə qala bilmərik. Müharibə haqqında həqiqətlər təhrif olunur. Sanki kimsə tarixi yenidən yalan, siyasi sifariş üzərində yazmaq istəyir. Sovet ordusunun Qələbənin əldə edilməsində həlledici rolunu bəzi qüvvələr danmaq istəyirlər. Bu, dözülməzdir, qəbuledilməzdir. Ona görə hamımız - veteranlar, siyasətçilər, ictimaiyyət, dünya ictimaiyyəti bu məsələ ilə bağlı öz sözünü deməlidir və biz bu sözü deyirik.

Tarixi təhrif etməklə yanaşı, faşistlərin qəhrəmanlaşdırılması prosesi də gedir. Biz buna da dözə bilmərik. Çünki faşizm ideologiyası Yer kürəsində ən çirkin, təhlükəli, dəhşətli ideologiyadır. Bu gün müxtəlif ölkələrdə neofaşizm meyillərinin güclənməsi bizi haqlı olaraq narahat edir. Bizə elə gəlirdi ki, faşizm ideologiyası ilə artıq məsələ bağlandı. Bundan sonra bu, heç vaxt baş qaldırmayacaq. Ancaq əfsuslar olsun ki, biz görürük, yürüşlər, müxtəlif tədbirlər keçirilir. İndi həmin ideologiya başqa adlarla pərdələnərək dirçəlməyə başlayır.

Ona görə mən çox şadam ki, siz veteranlar həmişə olduğu kimi, öz fəal mövqeyinizlə seçilirsiniz və sizin sözünüzün çox böyük mənası var. Siz müharibənin, o tarixin canlı şahidlərisiniz, onun iştirakçılarısınız.

Əfsuslar olsun ki, Azərbaycan xalqı da XX əsrin sonlarında faşizm ideologiyasının nəticəsi olan Qarabağ fəlakəti, işğalı ilə üzləşmişdi. Biz XX əsrin sonlarında erməni faşizmi ilə üzləşdik. Bizə qarşı aparılan işğalçı siyasət, xalqımıza qarşı törədilən Xocalı soyqırımı məhz erməni faşizminin təzahürüdür. Bu gün dünyada erməni faşizmi haqqında kifayət qədər sənədlər, kitablar, məqalələr dərc edilir.

Erməni faşizmini ifşa etmək üçün əsas yükü biz öz üzərimizə götürmüşük. Günahsız insanlar, qadınlar, uşaqlar ona görə öldürülürdü ki, onlar azərbaycanlıdır.

Biz erməni faşizminə qarşı mübarizə aparırıq və qurbanlarımızın qanını yerdə qoymuruq. Biz lazımi tədbirləri görürük və görəcəyik ki, faşistləri layiqincə cəzalandıraq. Azərbaycan Ordusu indi bütün lazımi tədbirləri görür. Eyni zamanda, Ermənistanda Hitlerə qulluq edən faşistlərin xatirəsinə hörmət göstərilir, onların adları küçələrə, meydanlara, parklara verilir. Siz veteranlar bir neçə ölkənin dövlət başçısına məktubla müraciət etmisiniz, erməni faşizmi haqqında yazmısınız, Ermənistanda faşistlərin qəhrəmanlaşdırılması haqqında yazmısınız. Mən bunu alqışlayıram. Bunu hər kəs bilməlidir. Bu, dözülməzdir”.

Qeyd edək ki, məhz cənab Prezident İlham Əliyevin sərəncamları ilə Azərbaycanda Böyük Vətən müharibəsi iştirakçılarına ən yüksək birdəfəlik yardım və müavinətlər verilir. Bütün bunlar ölkə prezidentinin hər bir vətəndaşına, xüsusən də veteranına göstərdiyi təmənnasız diqqətin və qayğının təzahürüdür.Veteranlar hər zaman Ümummilli liderin layiqli davamçısı cənab prezident İlham Əliyevin daxili və xarici siyasətini dəstəkləyir, müstəqil Azərbaycanın daha da çiçəklənməsi üçün əllərindən gələni əsirgəmirlər.

Xüsusi buraxılış

AZƏRBAYCAN VETERANI

# Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının dünəni və bu günü

*Ulu Öndər Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərlik etdiyi dövrdə, xüsusilə 1970-80-ci illərdə respublikada bütün sahələrdə olduğu kimi veteran hərəkatında da canlanma yaranmış, bu hərəkat tədricən bütün ölkəni əhatə etmişdir. Dövlət dəstəyi sayəsində Azərbaycanın əksər rayonlarında veteran təşkilatlarının yaradılması 1987-ci il mart ayının 21-də Respublika Veteranlar Şurasının təsis olunması ilə nəticələnmişdir.*

21 mart 1987-ci ildə Azərbaycan SSR rəhbərliyinin qərarı ilə ölkənin bütün müharibə və əmək veteranlarını öz ətrafında birləşdirəcək ümumrespublika veteranlar təşkilatının yaradılması məqsədi ilə təsis konfransı keçirilmiş və Azərbaycan SSR-in Müharibə və Əmək Veteranları Şurası yaradılmışdır.

Bu əslində 17 dekabr 1986-cı ildə ilk dəfə keçmiş Sovetlər Birliyində bütün qruplardan olan veteranları birləşdirən Ümumittifaq Veteranlar Şurasının yaradılmasının nəticəsi idi. Ümumittifaq Veteranlar Şurasının başlıca vəzifəsi dövlətin bir sıra istiqamətlərdə apardığı siyasətə dəstək verilməsi, gənclərin vətənpərvərlik, beynəlmiləlçilik ruhunda tərbiyəsi, veteranların sosial müdafiəsinin təminatından, asudə vaxtlarının təşkilindən ibarət idi. Əlbəttə, başlıca siyasi məqsəd cəmiyyətdə nüfuzlu insanlar sayılan veteranların sosial-iqtisadi, mənəvi, əsasən də milli böhran yaşamaqda olan ölkəni (SSRİ nəzərdə tutulur) düşdüyü vəziyyətdən çıxarmaqda dövlətə yaxından dəstək vermələrinə vahid Təşkilat səviyyəsində imkan yaratmaqdan ibarət idi. Ümumittifaq Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının yaradılması bütün veteran qruplarını birləşdirmək baxımından müsbət hadisə olsa da, o dövrün hakimiyyət təmsilçiləri üçün gözlənilən nəticəni vermədi. Məlumat üçün qeyd edək ki, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının ilk sədri partiya və dövlət xadimi, Sosialist Əməyi Qəhrəmanı Mazurov Kirill Trofimoviç seçilmiş və ömrünün sonuna qədər bu Şuraya rəhbərlik etmişdir.Onu da qeyd etməyi lazım bilirik ki, 1987-ci ilin martında bir sıra müttəfiq respublikalarda, o cümlədən həmin il mart ayının 27-də Belarusda Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurası yaradılmışdır.

Respublika Veteranlar Şurası yaradıldığı ilk vaxtlardan etibarən müxtəlif istiqamətlərdə fəaliyyətin təşkili üçün müvafiq tədbirlər görmüş, öz strukturunu, ştat vahidini bu fəaliyyətə uyğun qurmağa nail olmuşdur. Belə ki, 21 mart 1987-ci ildə Azərbaycan Respublikasının Müharibə və Əmək Veteranları Şurasının birinci Konfransı keçirilmişdir. Azərbaycan SSR rəhbərliyinin qərarı ilə ölkənin bütün müharibə və əmək veteranlarını öz ətrafında birləşdirəcək ümumrespublika veteranlar təşkilatının yaradılması məqsədi ilə keçirilən bu konfransın respublikada veteran hərəkatının inkişafına, bu sahədə yeni mərhələnin başlanmasına xüsusi təsiri olmuşdur.

Yeri gəlmişkən, qeyd edək ki, bu gün Azərbaycanda veteranlarla bağlı dövlət siyasətinin müəyyən edilməsi özündə bir sıra mühüm məqamları və fəaliyyət istiqamətlərini ehtiva edir. Belə ki, veteranlarla bağlı dövlət siyasəti dövlət hakimiyyət orqanlarının birbaşa dəstəyi ilə veteranların işi ilə əlaqədar müvafiq strukturun yaradılmasını, qanunvericilik çərçivəsində veteranların sosial müdafiəsinin gücləndirilməsi, cəmiyyət həyatına inteqrasiyası, veteran təşkilatının beynəlxalq əlaqələrinin qurulması üçün lazımi tədbirlərin görülməsinə dövlət büdcəsindən və digər mənbələrdən müvafiq miqdarda vəsaitin ayrılmasının, veteran hərəkatının mümkün vasitələrlə dəstəklənməsini, ölkə KİV-inin imkanları hesabına gənclərin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində, könüllü hərbi xidmətə, əməyə həvəsləndirilməsində veteranların yaxından iştirakını və s. məsələləri əhatə edir.



Azərbaycan Respublikası Müharibə və Əmək Veteranları Şurasının birinci konfransının keçirildiyi vaxt respublikada sosial-iqtisadi vəziyyətin ağırlaşdığı, ictimai-siyasi proseslərin gərginləşməyə başladığı, əslində ümumölkə həyatında bütün istiqamətlərdə böhranın yetişməkdə olduğu ərəfəyə təsadüf edirdi. Belə bir şəraitdə veteranların təşkilatlanması həm onların ictimai-siyasi proseslərə təsir imkanlarının artmasına, həm əhalinin mühüm, eyni zamanda daha fəal hissəsini təşkil edən gənclərin vətənpərvərlik və beynəlmiləlçilik tərbiyəsinin gücləndirilməsinə, həm də veteranların sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində planlı tədbirlərin görülməsinə zəmin yaradırdı. Azərbaycan Respublikası Müharibə və Əmək Veteranları Şurasının təsis konfransı Şuranın fəaliyyətinin səmərəli təşkili, respublikada tezliklə tanınması və nüfuz qazanması üçün özünün idarəetmə orqanlarına fəal, təcrübəli, xüsusən adlı-sanlı veteranları və dövlət orqanlarının, ictimai təşkilatların nümayəndələrini seçməli idi.

Arxiv sənədlərindən məlum olur ki, Şuranın birinci konfransının Təşkilat Komitəsinin sədri Azərbaycan KP MK-inin təşkilati-siyasi iş şöbəsinin müdiri H.A.Məmmədov olmuşdur. Azərbaycan Müharibə və Əmək Veteranları Şurasının konfransına respublikanın şəhər və rayonlarından 350 nümayəndə seçilmiş, konfransda onlardan 325 nümayəndə iştirak etmiş, üzrlü səbəbdən 25 nümayəndə iştirak etməmişdir. Təklifə əsasən Şuranın birinci konfransında konfransın 33 nəfərdən ibarət tərkibdə Rəyasət Heyəti seçilmişdir.

Azərbaycan SSR Müharibə və Əmək Veteranları Şurasının təsis konfransında Şuranın Rəyasət Heyətinin 7 nəfər üzvdən ibarət Bürosu, Şuranın sədri, sədr müavini, katibi və Təftiş Komissiyasının sədri də seçilmişdir.

Mustafa Cəfər oğlu Nəsirov Şuranın sədri, Yevgeniya İvanovna Yusova sədrin müavini, Bahadur Məmmədqulu oğlu Hüseynov katib, D.A.Məmmədova- Kosmodemyanskaya Təftiş Komissiyasının sədri seçilmişlər.

Təsis konfransından sonra öz təşkilati strukturunu formalaşdıran və işlək mexanizmlərin yaradılmasına çalışan Şura bütün mövcud imkanlardan istifadə etmişdir. Qısa müddətdə Şuranın ölkənin əksər iri şəhər və rayonlarında yerli strukturları fəaliyyətə başlamış, onların işinin səmərəli qurulması üçün təcrübəli veteranlar cəlb olunmaqla lazımi metodiki köməklik göstərilmiş, bu sahədə yerli hakimiyyət orqanlarının dəstəyindən maksimum yararlanmasına səy göstərilmişdir.

1987-ci ilin aprel ayından başlayaraq Şuranın fəaliyyəti əsasən aşağıdakı istiqamətləri əhatə etmişdir:

1. Təşkilati-metodiki işin gücləndirilməsi ilə 1987-ci ilin sonunadək yerli şəhər və rayon şuralarının yaradılması və fəaliyyətinin təşkili işinin başa çatdırılması;
2. İdeoloji işin gücləndirilməsi ilə ölkədə ideoloji sahədəki mövcud problemlərin dərinləşməsinin qarşısının alınmasında dövlət orqanlarına mümkün dəstək göstərilməsi;
3. Gənclər arasında vətənpərpərlik və beynəlmiləlçilik işinin gücləndirilməsi ilə sovet xalqının yekdilliyinin qorunmasında qarşıya çıxan problemlərin həllində dövlət orqanlarına mümkün dəstək göstərilməsi;
4. Veteranların sosial-məişət məsələlərinin mümkün həllinə nail olunması ilə onların ümumdövlət siyasətinin həyata keçirilməsində daha geniş və təşkilatlanmış formada iştirakına nail olunması;
5. Veteranların əmək fəaliyyətinə cəlb edilməsi məsələlərinə yardım göstərilməsi ilə onların ölkədə yaşanan sosial-iqtisadi böhrandan daha az əziyyət çəkmələrinə şərait yaradılması;
6. Şuranın SSRİ-nin digər respublikalarının veteran şuraları, eləcə də İkinci Dünya müharibəsində SSRİ-nin alman faşizmindən azad olunmasında iştirak etdiyi sosialist ölkələrinin veteran təşkilatları ilə əlaqələrin qurulması.

Şura təsis konfransından sonra müntəzəm surətdə öz Büro, Rəyasət Heyətinin iclaslarını, Plenumlarını keçirmiş, həm respublikanın həyatında baş verən mühüm hadisələrlə, həm də öz fəaliyyətinin təşkili ilə bağlı məsələlərlə əlaqədar müvafiq qərarlar qəbul etmiş, onların icrasına nəzarəti həyata keçirmişdir.

Göründüyü kimi, 1988-ci ildə ermənilərin Azərbaycana qarşı ərazi iddiaları ilə Dağlıq Qarabağda separatçılıq hərəkatının başlanması bir sıra dövlət orqanları ilə yanaşı, Respublika Veteranlar Şurasının fəaliyyətinin daha bir istiqamətdə təşkilini də vacib etmişdi. Bununla da Şuranın fəaliyyəti ölkənin o zamankı həyatının ən mühüm məsələlərini əhatə etməklə daha da genişlənmişdi.

1989-90-cı illərdə Şuranın Azərbaycanın ərazi bütövlüyünün müdafiəsinə, erməni millətçiləri və separatçılarının Dağlıq Qarabağın Ennənistana birləşdirilməsi iddialarının qarşısının alınması istiqamətindəki fəaliyyəti həqiqətən səmərəli olmuşdur. Şuranın sədri və məsul əməkdaşları Dağlıq Qarabağda separatçılıq hərəkatının bütün mümkün vasitələrlə dayandırılması, münaqişənin genişlənməsinə imkan verilməməsi üçün həm respublika, həm də ittifaq çərçivəsində müxtəlif görüş və tədbirlərin təşkilində yaxından iştirak etmiş, öz nümayəndələrinin belə görüş və tədbirlərə qatılmalarına şərait yaratmışdır.

Müstəqilliyin bərpasından sonrakı dövrdə, xüsusən 1990-cı illərin ikinci yarısından başlayaraq Respublika Veteranlar Şurasının beynəlxalq, o cümlədən ictimai və humanitar təşkilatlarla münasibətlərinin qurulmasında əsas diqqət Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın ədalətli mövqeyinin, ərazi bütövlüyünün təminatının müdafiəsinə yönəldilmiş, bir çox hallarda həmin təşkilatlardan bu məsələyə münasibətdə birmənalı mövqe bildirmələri istənilmişdir.

Bu dövrdə Azərbaycan daxilində yaranmış mürəkkəb vəziyyət nəzərə alınmaqla, veteranların ölkənin ictimai-siyasi həyatında fəal iştirakının təmin edilməsinə xüsusi əhəmiyyət yetirilməklə yanaşı, veteranların sosial müdafiəsi, onların asudə vaxtlarının təşkili, cəmiyyət həyatına inteqrasiyası istiqamətində tədbirlərin görülməsi də diqqət mərkəzində saxlanılmışdır.

Şuranın veteranların maddi-məişət şəraitinin yaxşılaşdırılması və asudə vaxtlarının təşkilinə necə diqqət göstərməsini Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin İnzibati orqanlar şöbəsinin şifahi sorğusuna əsasən göndərilmiş 7 aprel 1988-ci il tarixli 36 saylı məktubdan da görmək olar: "Azərbaycan Respublikasının Müharibə və Əmək Veteranları Şurası Sizə məlumat verir ki, Respublika Müharibə və Əmək Veteranları Şurası maraqlanan nazirliklərlə, idarələrlə, təşkilatlarla birlikdə veteranların maddi-məişət şəraitinin yaxşılaşdırılması və asudə vaxtlarının təşkili üzrə keçirdiyi reydlərin yekunları barədə tapşırıqlara uyğun olaraq məlumatı Nazirlər Sovetinin sədr müavini E.Qafarovaya, Naxçıvan MR Nazirlər Sovetinə, Dağlıq-Qarabağ MV-nin İcraiyyə Komitəsinə, xalq deputatlarının rayon (şəhər) icraiyyə komitələrinə göndərmişdir. Bu tapşırıqların icrası zamanı bir sıra icraiyyə komitələri yerli Müharibə və Əmək Veteranları Şuraları ilə birlikdə reydin nəticələrini müzakirə edib, veteranların sosial məişət şəraitinin yaxşılaşdırılmasına yönəlmiş tədbirlər planı hazırlayıb təsdiq etmiş, onların yerinə yetirilməsi gedişini nəzarətə götürmüşlər.

Hal-hazırda Azərbaycan SSR Nazirlər Sovetinin rəhbərliyi altında Sosial Təminat Nazirliyi və digər əlaqədar nazirlik, idarələr və rayon (şəhər) müharibə, əmək veteranları şuraları ilə birlikdə reydin nəticələri əsasında, direktiv orqanların qərarlarında nəzərdə tutulmuş yaşlı nəslin sosial-məişət şəraitinin yaxşılaşdırılmasını təmin etmək üçün cari beşillikdə planlaşdırma və tikinti işlərinin gedişi ilə bağlı və başqa məsələlərin həlli üçün «Qayğı» respublika proqramının layihəsinin hazırlanmasına başlayıblar.

Nazirlər Sovetində cari ilin aprel ayında Azərbaycan KP MK-nın nümayəndələri ilə birlikdə sözügedən proqramın işlənib hazırlanmasının gedişinə nəzarət məqsədi ilə xüsusi müşavirənin keçirilməsi nəzərdə tutulub".

Veteran hərəkatının güclənməsi, bu istiqamətdə qarşıya qoyulmuş müxtəlif vəzifələrin uğurlu həlli üçün, o cümlədən də gənclərin təlim-tərbiyəsi işində müharibə və əmək veteranlarının yaxından iştirakının təmin edilməsi məqsədi ilə fəaliyyətin təşkilinə də xüsusi diqqət göstərilmişdir. Müxtəlif dövlət orqanları, əsasən də təhsil müəssisələri, yerli idarəetmə, o cümlədən komsomol təşkilatları ilə yazışmalarda, rayon (şəhər) veteran şuralarına göndərilən göstəriş, təlimat xarakterli məktublarda Şuranın fəaliyyətinin ilk günlərindən başlayaraq bu məsələnin başlıca fəaliyyət istiqamətlərindən biri kimi nəzərdə tutulduğu aydınlaşır.

Respublika Veteranlar Şurası yarandığı gündən Azərbaycanın İkinci Dünya müharibəsində iştirakı ilə bağlı məsələlərə xüsusi əhəmiyyətli iş kimi yanaşmış, bu istiqamətdə çoxsahəli fəaliyyət planları işlənib həyata keçirilmişdir. Azərbaycanlıların bu müharibədə göstərdiyi qəhrəmanlıqlar, xüsusilə milli-atıcı diviziyaların yaradılması və şanlı döyüş salnaməsi, Azərbaycanın faşizm üzərində qələbəyə verdiyi böyük töhfələr, ayrı-ayrı soydaşlarımızın, xüsusilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş şəxslərin şərəfli döyüş yolunun təbliği və s. məsələlər daim diqqət mərkəzində saxlanılmışdır. Bu sahədə mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri İkinci Dünya müharibəsində itkin düşmüş azərbaycanlıların taleyinin aydınlaşdırılması, harada dəfn edildikləri müəyyənləşdirilən şəxslərin məzarlarının abadlaşdırılması, həmin ərazilərdə xatirə yerlərinin yaradılması ilə bağlı olmuşdur. "Respublika Xatirə kitabı"nın yaradılması da bu sahədə görülən mühüm işlərdən biri sayıla bilər.

Respublika Hərbi komissarlığının köməyi ilə Azərbaycan SSR ərazisindəki rayon(şəhər) hərbi komissarlıqlarının arxivlərində saxlanılan, Böyük Vətən müharibəsində həlak olan (itkin düşən) yüz min nəfərə yaxın döyüşçü haqqında məlumatlar alınmışdır.

Müstəqilliyin bərpasının ilk dövrləri isə doğrudan da, mürəkkəb və ziddiyyətli bir dövr idi. Azərbaycan bir tərəfdən ona əsassız torpaq iddialarını reallaşdırmağa çalışan Ermənistanın hərbi birləşmələrinin müntəzəm xarakter alan hücumlarının qarşısını almalı, digər tərəfdən keçmiş ittifaqın yeni müstəqil respublikaları ilə yeni iqtisadi əlaqələr qurmalı, həm də ölkə daxilində hakimiyyət uğrunda günbəgün kəskinləşən mübarizənin gətirə biləcəyi fəsadları neytrallaşdırmalı idi.

Respublika Veteranlar Şurasının fəaliyyətindən danışarkən başlıca istiqamətlərdən sayılan təbliğat işinin necə qurulmasına da diqqət yetirilməlidir. Respublika Veteranlar Şurası yaradıldığı gündən etibarən onun gördüyü işlər, həyata keçirilən tədbirlər barədə ölkə KİV-ində müntəzəm surətdə məlumatlar dərc olunmuş, Azərbaycan Televiziyası və Radiosunda yayımlanmışdır. Mərkəzi qəzetlər - "Kommunist", "Azərbaycan gəncləri", "Bakı" qəzetləri, Azərbaycan Televiziyası və Radiosu bu sahəyə imkan daxilində yer ayırmağa, Şuranın fəaliyyəti barədə ictimaiyyəti məlumatlandırmağa çalışmışdır. Lakin həmin illərdə, xüsusilə dövlət müstəqilliyinin bərpasından əvvəlki dövrdə Azərbaycanda KİV-in sayının və imkanlarının məhdudluğu ilə əlaqədar Şuranın keçirdiyi tədbirlərlə bağlı ictimaiyyətin operativ məlumatlandırılması bir çox hallarda mümkün olmamışdır. İnformasiyaların cəmiyyətə vaxtında və daha geniş formada çatdırılması, diqqətin Şuranın fəaliyyətinin dolğun işıqlandırılmasına yönəldilməsi zərurəti Azərbaycan veteran təşkilatlarının qəzeti olan "Hikmət" qəzetinin nəşri barədə qərar qəbul edilməsi ilə nəticələnmişdir. Qeyd edək ki, "Azərbaycan Veteranı" qəzeti "Hikmət" qəzetinin xələfidir.

Bu gün Respublika Veteranlar Təşkilatı nəinki Respublika daxilində, eyni zamanda Respublikamızın hüdudlarından kənarda da tanınır. Həyata keçirilən tədbirlər yarandığı gündəki amalını qorumaqla gələcəyə doğru istiqamətlənmişdir. Bu gün Veteranlar Təşkilatının qarşısında duran vəzifə və öhdəliklər Azərbaycan xalqına gələcəyi olan gənclərinin doğru tərbiyə edilməsinə yönləndirilmişdir.

Təşkilat Respublikanın demək olar ki, hər bir dövlət qurumu ilə, xüsusən Silahlı Qüvvələr və hüquq mühafizə orqanları ilə yaxından əməkdaşlıq edir. Bu təsadüfi deyildir. Azərbaycanda ordu quruculuğunun xüsusi xidmət orqanlarının yaradılmasında veteranların təcrübəsi örnək kimi götürülmüş, onların səy və bacarıqlarından istifadə edilmişdir. Xüsusən Heydər Əliyevin 90-cı illərdə ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlərdə veteranlar fəal iştirak etmişlər. Məhz Azərbaycan ordusunun sıralarında Əfqanıstan veteranlarının orduya çağırılması, Böyük Vətən müharibəsi iştirakçılarının isə el ağsaqqalı və təcrübəli döyüşçü kimi ordu quruculuğuna cəlb edilməsi deyilənlərə əyani misaldır.

Azərbaycan Silahlı Qüvvələrinin dünya orduları arasında tutduğu mötəbər yerdə veteranların əməyinin, təcrübəsinin rolu böyükdür. Hər zaman Respublika Veteranlar Təşkilatı Azərbaycan ordusunun yanındadır və Azərbaycan ordusunu şərəfi və şanı hesab edir. Veteranlar cəbhə bölgələrinə gedir, düşmənlə üzbəüz dayanan əsgər və zabitlərimizə daha mətin olmağa, torpaqlarımızı işğaldan azad etməyə çağırır. Aprel döyüşləri ərəfəsində veteranların hər birinin müsəlləh əsgər kimi cəbhəyə getmək istəmələri hər kəsə məlumdur.

Respublika Veteranlar Təşkilatı respublikanın digər güc strukturları ilə-Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti, Sərhəd Qoşunları ilə birgə tədbir və layihələr həyata keçirir. Eyni zamanda Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə yaxından əməkdaşlıq edir. Respublika Veteranlar Təşkilatının fəaliyyəti bununla bitmir, Respublikada fəaliyyət göstərən Qeyri-Hökumət Təşkilatları və bir sıra beynəlxalq təşkilatlarla birgə işlər görməkdədir. Təşkilatın əməkdaşları xarici dövlətlərə vaxtaşırı işgüzar səfərlərə gedir, təmsil olunduqları beynəlxalq tədbir və konfranslarda Azərbaycan həqiqətlərini-Dağlıq Qarabağın erməni işğalını dünya ictimayyətinə çatdırır. Dünyada sülhün və əmin-amanlığın qorunub saxlanılmasını Respublikamızın multikultural dəyərlərini və tolerantlıq təcrübəsini alnı açıq şəkildə təbliğ edirlər. Faşizmin yenidən baş qaldırmasının qarşısının alınması üçün əhəmiyyətli tədbirlər görürlər.

Respublika Veteranlar Təşkilatı xalqların birliyi faşizm üzərində qələbədə və sülhün qorunmasında əsas amil kimi" mövzusunda beynəlxalq konfransın, və hər il keçirilən "Sülh göyərçini" mənəvi birliyə çağırış dünya miqyaslı tədbirin Respublikamızda təşkilatçılığını həyata keçirir. Gələcəkdə bu cür tədbirlər daha çox olacağına inanırıq və bunu işimiz ilə sübut edirik.

Çoxsaylı veteranları ətrafında birləşdirən Təşkilat günü-gündən fəaliyyətini zənginləşdirir, dövlət siyasətinə gördüyü işlərlə dəstək verir, əsas vəzifəsi olan gənclərin vətənpərvərlik tərbiyəsini yorulmadan həyata keçirir.

AZƏRBAYCAN VETERANI

# Onun həyat yolu hər birimiz üçün nümunədir

***Tofiq Yaqub oğlu Ağahüseynov 1923-cü il fevral ayının 1-də Şəkidə anadan olub. Orta məktəbi Bakıda bitirib, 1942-ci ilin sentyabrında o, Bakı Zenit Artilleriya Məktəbinə daxil olur. Yüksək ümümtəhsil hazırlığı sayəsində T.Ağahüseynov hərbi məktəbdə yaxşı oxuyurdu. Zenitçilərin ixtiyarında olan texnika mürəkkəb idi və mexanikanın əsasları sahəsində dərin bilik tələb edirdi, Ağahüseynov da bu fənnləri yaxşı bilirdi. Tofiq öz xatirələrində qeyd edir ki, "O, Bakı Zenit Artilleriya Məktəbində oxuduğu zamanlarda cəbhədə vəziyyət daha mürəkkəbləşirdi. Almanlar Moskvaya yaxınlaşırdı. Çoxları fikirləşirdi ki, Moskvanın süqutuna çox qalmayıb. Mənim bu işlərə münasibətim isə birmənalı idi. Biz gənclər belə hesab edirdik ki, almanlar hətta Moskvanı alsalar belə müqavimət davam edəcək. Hamı gözləyirdi ki, təhsil yarımçıq kəsiləcək və biz cəbhəyə yola düşəcəyik."***

1942-ci ildən yeni sınaqlar başladı. Almanlar cənubdan hücuma keçib cəbhə xəttini yardılar, bütün Şimali Qafqazı işğal edib Mozdoka yaxınlaşdılar. Bakıda vəziyyət gərginləşirdi. Rəsmi təbliğat xəbərdarlıq edirdi ki, hücümun məqsədi Bakının neft rayonlarını işğal etməkdir. Hitlerin 1942-ci il 25 sentyabr 41 nömrəli tarixi sərəncamına görə Bakı tutulmalı idi. Şəhərin ətrafında təcili müdafiə sədləri qurmağa başlanıldı, məktəbimizin kursantları da bu işə cəlb olundu, biz artilleriya üçün səngərlər qazmağa başladıq.Səhərdən axşama qədər işləyirdik. Qısa müddət ərzində Bakı ətrafında güclü müdafiə səddi quruldu. 20 minə yaxın adam bu səddin tikintisində göstərdiyi əmək qəhrəmanlığına görə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı və "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif olunmuşdur. Bu arada məlum oldu ki, almanların əsas zərbəsi Stalinqrada istiqamətlənib. Mozdok altında vəziyyət sabitləşdi.Biz yenidən dərslərə başladıq."

Bir il yarımdan sonra Tofiq leytenant rütbəsi alır və bu rütbə ilə Bakıdan ayrılmalı olur. 1-ci Belarus cəbhəsində vzvod-komandiri, əlahiddə zenit artilleriya diviziyası qərargah rəisinin köməkçisi olmuş, Visla-Oder və Berlin əməliyyatlarında iştirak etmişdir.

1942-ci ildə Şimalda başlayan döyüşlərin ilk günlərindən döyüşçülər öz komandirinə inanırdılar. Əsgərlər deyirdilər ki, belə komandirlə heç şeytan da qorxulu deyil. Batareya komandiri T. Ağahüseynov hər çətin vəziyyətdən qalib çıxırdı. Komandirə bəslənən inam isə əsgərlərin qüvvəsini artırır, onların mənəvi ruhunu yüksəldirdi.

Onun cəbhə tərcümeyi-halından bir epizodu xatırlamaq yerinə düşər: "Düşmən yungerslərinin qara nöqtələri yaxınlaşırdı. T.Ağahüseynov atəşə hazırlıq üçün bütün tədbirləri gördü, "atəş" komandası verdi və onu cəbhə həyatında ilk dəfə olaraq təşvişə düşmüş qağayıları pərən-pərən salan yaylım atəşi açıldı. Zenitçilər mərmilərin partlamasını, düşmən təyyarələrinin ətrafında ağqara ləkələrin yaranmasını həyəcanla izləyirdilər. Düşmən aviasiyasının hücümu dəf edildikdən sonra batareya komandiri hava həyəcanını dayandırılması barədə komanda verdi.1943-cü ilin sakit, mülayim noyabr səhəri idi. Zenit batareyaları üzrə növbətçi günorta məruzə etdi ki, aviasiya mühərriklərinin səsi eşidilir. Az sonra komanda məntəqəsindən xəbər verdilər ki, 36 düşmən təyyarəsi batareyaya doğru istiqamət götürüb. T.Ağahüseynov hava həyəcanı elan etdi və o, aşağıdan uçan faşist bombardımançılarını ilk dəfə o vaxt gördü. İrəlidəki təyyarədən havaya ağ raket buraxıldı və o dərhal surətlə aşağı şığıdı. T. Ağahüseynov nə baş verdiyini əvvəl başa düşmədi. Yeri sarsıdan ilk partlayış onu elə vahimələndirdi ki, özünü çətinliklə ələ aldı. Hücum bir saat davam etdi və bütün bu müddət ərzində Ağahüseynov öz döyüş postunda oldu, dəqiq komandalar verdi. Düşmən 150-ə qədər mərmi atıb atəşi dayandırdı. Xoşbəxtlikdən itki və ciddi zədələnmə olmadı. " İnsanın uyğunlaşa bilmədiyi şərait yoxdur. Ağahüseynovun döyüşçüləri də artilleriya atəşlərinə tez alışdılar. Düşmən onları demək olar ki, hər gün eyni vaxtda atəşə tuturdu. Müharibə davam edirdi. 1944-cü ilin baharı gəldi. Döyüşçülər tez-tez müharibədən sonra yaşayacaqları həyat barədə danışmağa başlamışdılar. Lakin heç kim "əgər yaşasaq" sözlərini dilinə gətirmirdi.



Tarixdə həyata keçirilən Visla-Oder əməliyyatı Böyük Vətən müharibəsi və İkinci Dünya müharibəsinin ən mühüm səhifələrindən biridir. Bu əməliyyatda əsas məqsəd alman-faşist qruplaşmalarını darmadağın etmək, Polşanın azad edilməsini başa çatdırmaq, Berlinə həlledici zərbə endirilməsi üçün münasib şərait yaradılmasını təmin etmək idi. Visla-Oder və Berlin əməliyyatlarının iştirakçısı kimi Tofiq Ağahüseynov o dövrü xatırlayaraq deyir: " 1945-ci ilin baharında Visla-order əməliyyatı başladı. Bu zaman bizim divizion cəbhə xəttinin arxasında idi. Qoşunlarımız Oderə çatıb əməliyyat meydanı tutduqdan sonra Berlin əməliyyatına hazırlıq başlandı. Divizionumuz Oder çayı rayonunda yerləşdiriləcəkdi. Yeni rayona kəşfiyyat qrupu göndərilməli idi. Bizə o vaxtlar "polutorka" adlanan yük maşını ayırmışdılar. Səfərə hazırlaşdığımız



müddətdə qrupun heyəti ixtisar edildi, cəmi 2 nəfər qaldıq: sürücü və mən... Oder çayına aparan bütün yollar qoşunlarla dolu idi. Almanlar bərələrə və qoşunlara mütəmadi olaraq zərbələr endirdilər. Biz özümüz də bir neçə dəfə bombardımana düşdük. Bütün bunlar mənim digər gördüklərimdən tamam fərqli idi. Bizim divizionla bağlı heç bir göstəriş verilməmişdir. Birtəhər korpusun qərargahı ilə əlaqə yaratmaq mümkün oldu. Mənə dedilər ki, tapşırıq dəyişib və mən Oderin sağ sahilində Frankfurt-Oder şəhərinə getməliyəm. Divizionumuz buradakı Replin stansiyasına boşaltmalı idi.Mövqelərimiz isə Frankfurt-Oder şəhərinin əks tərəfində yerləşən Kunesdorf şəhərində nəzərdə tutulmuşdur. Mən Replin stansiyasına gələndə divizionumuz öz yükünü boşaldırdı. Bu vaxt stansiya artilleriya atəşinə tutulmağa başladı. Vaqonlar od aldı, bütün şəxsi heyət alovla mübarizəyə başladı. Mən və sürücü də bu işə qoşulduq. Axşama yaxın yükləri boşaldıb qurtardıq və batareyalar öz mövqelərinə doğru hərəkət etməyə başladılar. Artıq Berlin əməliyyatı başlamışdır və kəşfiyyat üçün getmək lazım idi. Mən öz maşınımla yola düşdüm və mayın 2-si Berlinə çatdım. Korpusun nümayəndəsini tapdım, o dedi ki, divizion yerində qalır və mən geri qayıtmalıyam. Bu zaman artıq Reyxstaq alınmışdır və mən ona tamaşa etmək istəyimizin qarşısını ala bilmədim. Hətta mən onun sütünlarının birinin üzərinə öz familyamı da yazdım. Sonra geri - Kunesdorfa qayıtdıq. Mayın 8-də isə hamının həsrətlə gözlədiyi Qələbə qazanıldı.

Müharibə mənim üçün belə qazanıldı. İnana bilmirdim ki, od-alovlardan keçərək sağ qaldım. Müharibə dəhşətli şeydir, bunu etiraf etmək lazımdır. Lakin insan bu dəhşətə, vahiməyə, qorxu hisslərinə qalib gəlməyi bacarsın."

Beləliklə müharibə başa çatdı, müharibə bitdikdən sonra Tofiq Ağahüseynovun qulluq etdiyi diviziya 1946-cı ilin oktyabrına qədər Almaniyada qalır.

Onun sağlamlığı, fiziki hazırlığı, ətrafındakılara münasibəti, cəsarəti, dönməzliyi, xüsusilə də daim biliyini artırması gələcəkdə böyük hərbçi olacağına yol açan faktorlardan idi. 1949-cu ildə Dzerjinski adına Hərbi Akademiyaya, bunun ardınca Hərbi Artilleriya Akademiyasına daxil olur.

Tofiq Ağahüseynov 1960-1964-cü illərdə Hövsanda yerləşən Hava Hücumundan Müdafiə polkuna komandirlik edir, 1964-cü ilin sonlarında Volqoqrada göndərilir və diviziya komandiri kimi orada çalışır. 1968-ci ildə general-mayor rütbəsi alır. 1969-cu ildən Rostovda korpus komandiri təyin edilir.

1972-ci ildə general-leytenant rütbəsi alır və 1975-ci ildə Bakı Dairəsi Hava Hücumundan Müdafiə Komandanının birinci müavini təyin edilir. 1980-ci ildə general- polkovnik rütbəsini alan Tofiq Ağahüseynova həm də Bakı Dairəsi Hava Hücumundan Müdafiə Komandanı vəzifəsi həvalə edilir.

O, SSRİ Silahlı Qüvvələrində general-polkovnik rütbəsi alan ilk azərbaycanlıdır.Tofiq Ağahüseynova 1982-ci ildə daha böyük bir vəzifə həvalə etdilər. O, Varşava Müqaviləsi Dövlətlərinin Birləşmiş Silahlı Qüvvələri Baş Komandanlığının Çexoslovakiyadakı nümayəndəsi təyin olunur.

Azərbaycan Prezidenti Heydər Əliyevin 1997-ci il 17 aprel tarixli sərəncamı ilə Tofiq Ağahüseynov prezidentin hərbi məsələlər üzrə köməkçisi təyin olunur. Eyni zamanda, general-polkovnik rütbəsində Azərbaycan Milli Ordusu sıralarına bərpa edilir. Bu zaman onun 74 yaşı var idi. Müharibə illərində və sonralar dövlətin ali mükafatlarına, orden və medallara layiq görülüb. Qırmızı Bayraq, Oktyabr İnqilabı, Birinci Dərəcəli Vətən Müharibəsi, Qırmızı Ulduz ordenləri onun yaxasını bəzəyib. O, üç çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 1 fevral 2008-ci il tarixli Sərəncamı ilə Azərbaycanda hərbi qulluqçuluq sahəsində xidmətlərinə görə "Şöhrət" ordeni ilə, 17 yanvar 2013-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin formalaşdırılmasında və hərbçi kadrların hazırlanmasında xüsusi xidmətlərinə görə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.

12 sentyabr 2017-ci il tarixindən Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri vəzifəsinə təyin olunub.

2018-ci ildə isə general Tofiq Ağahüseynov cənab Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

AZƏRBAYCAN VETERANI
Xüsusi buraxılış
7
17-18 (112-113) 15 oktyabr 2018-ci il

# RESPUBLİKA VETERANLAR TƏŞKİLATINA SƏDRLİK ETMİŞ ŞƏXSİYYƏTLƏR



***Mustafa Cəfər oğlu Nəsirov*** 25 oktyabr 1921-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. 1938-ci ildə Dərbənd pedaqoji məktəbini, 1940-cı ildə isə Dağıstan Dövlət Müəllimlik İnstitutunu bitirmişdir.

1942-ci ilin yanvar ayında hərbi xidmətə çağırılıb. Xidmətini 1941-ci ilin 15 oktyabrından Moskva altında döyüşən 194-cü atıcı alayında əsgər kimi başlamışdır. 1942-ci ilin avqust ayında Saratov sərhəd qoşunlarının hərbi məktəbinə göndərilmişdir. 1943-cü ilin aprel ayında leytenant hərbi rütbəsində DİXK-nın sərhəd qoşunlarının Qırğızıstan dairəsində komandir vəzifələrində xidmətini davam etmişdir. 1947-ci ilin fevral ayından Frunze şəhərində DİN qoşunları üzrə qarnizon komendaturasının komendantı olmuşdur.

1968-ci ilin oktyabr ayında Azərbaycan SSRİ nəzdində DTK-nin sədri general-mayor Heydər Əliyevin təşəbbüsü ilə Bakıda SSRİ DTK-nin Zaqafqaziya sərhəd dairəsinin hərbi-əməliyyat şöbəsinin rəis müavini vəzifəsinə təyin edilmişdir. 1972-ci ilin dekabrından Bakıda HƏŞ-nin rəisi, SSRİ DTK - nin Zaqafqaziya sərhəd dairəsi ordusunun rəis müavini, 1977-ci ildə SSRİ-nin Hərbi Qüvvələrinin baş Qərargahı nəznindəki akademiyada rəhbər heyətinin təkmilləşdirilməsi üzrə ali akademik kurslarında oxumuşdur.

Mustafa Nəsirov 1987-ci ilin mart ayında Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının ilk sədri seçilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2011-ci il tarixli Sərəncamı ilə Mustafa Cəfər oğlu Nəsirov "Şöhrət" ordeni ilə təltif edilib.



***Bahadur Məmmədqulu oğlu Hüseynov*** 1921-ci il dekabr ayının 15-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda kəndli ailəsində anadan olmuşdur. 1939-cu ildə Xarkov şəhərindəki Elektrotexnika İnstitutunun hazırlıq şöbəsinə daxil olmuş, həmin şöbəni bitirdikdən sonra təhsilini F.E.Dzerjinski adına Xarkov sərhədçilər məktəbində davam etmişdir.

Böyük Vətən müharibəsi başlananda Bahadur da vaxtından əvvəl təhsilini başa vuraraq, kiçik leytenant rütbəsində, taqım komandiri kimi cəbhəyə yollanır. O, ilk döyüşə 1941-ci ildə Smolensk istiqamətində döyüşən 246-cı diviziyanın 908-ci alayının tərkibində başlayır. Üzbəüz mövqelərdə düşmənlə ölüm-dirim savaşında döyüşən kiçik leytenant B.Hüseynov üç dəfə ağır yaralanır.

Gənc zabit 1942-ci ildən 1948-ci ilə kimi Gürcüstanın müxtəlif bölgələrində tərcüməçi, zabit, böyük zabit vəzifələrində qulluq edir. 1948-1963-cü illərdə Sərhəd Qoşunlarının Azərbaycan dairəsinin 43-cü sərhəd dəstəsində əvvəlcə bölmə rəisi, kəşfiyyat bölmə rəisi vəzifələrində xidmət edir.

Xüsusi xidmət orqanlarında maraqlı həyat yolu keçən əməliyyat müvəkkili, baş əməliyyat müvəkkili, bölmə rəisi Bahadur Hüseynov 1969-cu ildə Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizlik Komitəsinə sədr göndərilir.

Bahadur Hüseynov 1978-ci ildə general-mayor rütbəsinə layiq görülür. 1986-cı ildə təqaüdə göndərilir.

Respublika Veteranlar Təşkilatının yaradıcılarından biri olmuşdur. 1992-ci ildən 2001-ci ilə kimi Təşkilatın sədri vəzifəsində çalışmışdır. 31 dekabr 2016-cı ildə Bakıda vəfat etmişdir.



***Baloğlan Əmrah oğlu Rüstəmov*** 1922-ci il iyun ayının 22-də Naxçıvanın indiki Culfa rayonunun Qazançı kəndində anadan olmuşdur. 1941-ci ildə könüllü olaraq ordu sıralarına yollanan Baloğlan Rüstəmov hərbi desant məktəbinə göndərilmişdir. 1941-1945-ci illər müharibəsi dövründə Baloğlan Rüstəmov Qafqazdan başlayaraq Berlinədək şərəfli döyüş yolu keçmişdir.

O, alman-faşist işğalçılarına qarşı ağır döyüş əməliyyatlarının iştirakçısı olmuş, qəhrəmanlıqlar nümayiş etdirmişdir. Müharibədən sonra 1946-cı ilin oktyabr ayına qədər (ordudan tərxis olunana qədər) Almaniyanın qərb sərhədlərində zastava rəisi olaraq qulluq etmişdir.O, müharibədən sonra - 1952-ci ildə Bakı partiya məktəbini bitirmiş, 1978-ci ildə isə Moskva Ali Həmkarlar İttifaqı Məktəbinin məzunu olmuşdur.

Təqaüdə çıxdıqdan sonra Baloğlan Rüstəmov 1984-cü ildən etibarən öz fəaliyyətini gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinə həsr edərək, 1987-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Veteranlar Şurasının sədri olmuşdur. 2001-ci ildən ömrünün sonunadək (9 oktyabr 2007 ) Respublika Veteranlar Təşkilatının sədri kimi fəaliyyət göstərmişdir. O, Ümumdünya Müharibə Veteranları Baş Assambleyasının üzvü olmuşdur.

2002-ci ildə Baloğlan Rüstəmov müstəqil Azərbaycan Respublikasının ali mükafatına - "Şöhrət" ordeninə layiq görülmüşdür.



***Əlövsət Məmmədşah oğlu Baxışov*** 1923-cü il martın 3-də Quba rayonunun Amsar kəndində anadan olub. O, 1943-cü ildə hərbi xidmətə çağırılıb, İkinci Dünya müharibəsindən sonra 1950-ci ilin mart ayınadək ordu sıralarında qulluq edib.

Əlövsət Baxışov 1952-ci ildə Müəllimlər İnstitutunun tarix fakültəsini, 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini, 1958-ci ildə Bakı Ali Partiya Məktəbini, 1978-ci ildə isə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsini bitirib. 1992-ci ilədək Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyində baş idarə rəisi vəzifəsində işləyib.

1992-ci ildən etibarən Əlövsət Baxışov öz həyatını Azərbaycan Respublikası Veteranlar Təşkilatı ilə bağlayıb. O, burada ayrı-ayrı vəzifələri tutmuş, o cümlədən daimi komissiya sədri, məsul katib və sədrin birinci müavini kimi çalışıb, 2008-ci ildə isə həmin təşkilatın IV qurultayında Təşkilatın sədri vəzifəsinə seçilib.

Əlövsət Baxışovun fəaliyyəti dövlət tərəfindən həmişə layiqincə qiymətləndirilib. O, müxtəlif orden və medallarla təltif edilib, müstəqil Azərbaycan Respublikasının ali təltifi olan "Şöhrət" ordeninə layiq görülüb.

Əlövsət Məmmədşah oğlu Baxışov 2013-cü il iyun ayının 3-də ömrünün 91-ci ilində vəfat etmişdir.



***Dadaş Qərib oğlu Rzayev*** 1935-ci ildə Goranboy rayonunun Dəliməmmədli qəsəbəsində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutuna daxil olan D.Rzayev 1954-cü ildə Sovet Ordusunda əsgər kimi hərbi xidmətə çağırılır.

D.Rzayev Zaqafqaziya Hərbi Dairəsində, Gəncə şəhərində olan 104-cü diviziyada xidmət edir. İlk gündən taleyini desant qoşunları hissələrinə bağlayan Dadaş Rzayev 1970-ci ildə Moskvada M.F.Frunze adına Ali Hərbi Akademiyaya daxil olaraq bu sahədə təhsilini davam etdirir. D.Rzayev yeganə azərbaycanlıdır ki, əlahiddə desant-paraşüt briqadasının komandiri olarkən general vəzifəsində çalışıb.

90-cı illərin əvvəllərində ölkədə çətin və gərgin anlar yaşanırdı. Azərbaycan hökumətinin çağırışı ilə D.Rzayev 1991-ci ilə qədər Qarabağa Xalq Yardımı Komitəsində çalışır. General-mayor Dadaş Rzayev bütün çətinliklərə baxmayaraq, ordumuzun formalaşmasında fəal iştirak edir, təcrübəli zabitləri də bu işə cəlb edirdi. O, Qazax, Tovuz və Gədəbəy rayonlarının strateji yüksəkliklərində mühəndis istehkam qurğuları düzəldərək bu istiqamətlərdə bütün mövqeləri möhkəmləndirir. Avqustun 8-də ermənilərin əsas mövqelərini vurub hücuma keçirlər. Qısa müddət ərzində həyata keçirilən döyüş əməliyyatları nəticəsində Başkənd ermənilərdən alınır. Başkənd əməliyyatından sonra D.Rzayevi müdafiə naziri təyin edirlər.

21 dekabr 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasının ictimai həyatındakı səmərəli fəaliyyətinə və gənclərin vətənpərvərlik tərbiyəsindəki xidmətlərinə görə" şöhrət ordeni ilə təltif edilib.

28 yanvar 2014-cü ildə 12 sentyabr 2017-ci il tarixədək Respublika Veteranlar Təşkilatına sədrlik etmişdir.

# Respublika Veteranlar Təşkilatını təbrik edirlər

**Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri istefada olan general-polkovnik Ağahüseynov Tofiq Yaqub oğluna**

***Hörmətli Tofiq müəllim!***

Sizi və tabeliyinizdə olan kollektivi Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının yaradılmasının 30 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımı bildirirəm.

Azərbaycanda Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründən başlayaraq veteranlarla bağlı ardıcıl şəkildə həyata keçirilən dövlət qayğısı bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək, yorulmaz fəaliyyətinizin bəhrəsi kimi maddi və mənəvi qayğı ilə əhatə olunursunuz.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatı yarandığı gündən bu günədək dövlətimiz tərəfindən Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, onun maddi-texniki bazasının möhkəmləndirilməsi və mənəvi-psixoloji hazırlığının artırılması istiqamətində görülən mühüm işlərdə, gənclərimizin hərbi vətənpərvərlik, dövlətçiliyə sədaqət ruhunda tərbiyəsində fəal iştirak edir.

Əminəm ki, Respublika Veteranlar Təşkilatının üzvləri öz zəngin təcrübəsindən səmərəli istifadə edərək bundan sonra da əzmlə çalışacaq, ömrünün müdrik çağında belə Vətənə və xalqa şərəfli xidmətləri ilə daima gənclərə örnək olmaqla öndə olacaqlar.

Sizə və kollektivinizin hər bir üzvünə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və işlərinizdə yeni müvəffəqiyyətlər arzulayıram.

*Bayramınız mübarək!*

***Hörmətlə,***

***Zakir Həsənov,***
***Azərbaycan Respublikasının Müdafiə naziri,***
***general-polkovnik***

Azərbaycan Respublikası Müharibə, Əmək və
Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri
ehtiyatda olan general-polkovnik cənab
Tofiq Ağahüseynova

Hörmətli Tofiq müəllim,

Sizi və rəhbərlik etdiyiniz təşkilatın üzvlərini «Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının 30 illik yubileyi» münasibətilə səmimi qəlbdən təbrik edir, can sağlığı və uzun ömür arzulayıram.

Yaradıcısı və memarı Dahi Öndər Heydər Əliyev olan müstəqil Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin formalaşdırılması, ordu quruculuğunun inkişafı, ordumuzun gücünün və döyüş qüdrətinin artırılması üçün gənclərimizin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının böyük rolu olmuşdur.

Yaradılmasının 30 illiyini qeyd edən təşkilat Dahi Öndər Heydər Əliyevin Azərbaycanda yenidən rəhbərliyə qayıtması ilə fəaliyyətini bərpa etmiş, veteranlara münasibət əhəmiyyətli dərəcədə dəyişmiş, dövlət qayğısı ilə əhatə olunmuşlar. Bu yanaşma Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilmiş, təşkilatın maddi-texniki bazası gücləndirilmiş, onların rifahının yüksəldilməsi istiqamətində dövlət başçısı tərəfindən ardıcıl və məqsədyönlü addımlar atılmış, veteranlara dövlət qayğısı ən yüksək səviyyəyə qaldırılmışdır.

Xidmətləri boyu Vətən, xalq və dövlət qarşısında müqəddəs borclarını şərəf və vicdanla yerinə yetirmiş, Azərbaycan Silahlı Qüvvələrinin formalaşdırılmasında, hərbçi kadrların hazırlanmasında və hərbi qulluq sahəsində xüsusi xidmətləri olan veteranların Azərbaycan Respublikasının Prezidenti tərəfindən dəfələrlə təltif olunmaları onların fəaliyyətinə göstərilən dövlət qayğısının təzahürüdür.

Gənclərin hərbi vətənpərvərlik, xalqına, dövlətinə, Prezidentinə sədaqət ruhunda tərbiyə olunmasında, eləcə də ölkənin ictimai-siyasi həyatında fəal iştirak edən veteranların Dövlət Sərhəd Xidmətinin hərbi hissələrində hərbi qulluqçularla keçirilən görüşləri, müxtəlif mövzularda çıxışlar etməsi sərhəd mühafizəsinin inkişafına da müsbət töhfəsini verməkdədir.

Hörmətli Tofiq müəllim!

Bu əlamətdar gün münasibətilə bir daha Sizi və rəhbərlik etdiyiniz təşkilatın üzvlərini ürəkdən təbrik edir, Azərbaycan Respublikasının Prezidenti - Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında dövlətçiliyimizin, hərbi qüdrətimizin möhkəmləndirilməsi naminə fəaliyyətinizdə uğurlar diləyir, can sağlığı və uzun ömür arzulayıram.

Hörmətlə,

Dövlət Sərhəd Xidmətinin rəisi
general-polkovnik — Elçin Quliyev

16 oktyabr 2018-ci il

**Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri general-polkovnik cənab Tofiq Ağahüseynova**

***Hörmətli Tofiq müəllim!***

Sizi və Sizin timsalınızda bütün veteranlarımızı Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yaradılmasının 30 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edirəm!

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə həyata keçirdiyi islahatlar və genişmiqyaslı proqramlar nəticəsində bütün sahələrdə olduğu kimi veteran hərəkatında da canlanma yaranmış, bu hərəkat tədricən bütün ölkəni əhatə etmişdir. Ulu öndər xalqımızın faşizm üzərində qələbəyə verdiyi töhfələri həmişə yüksək qiymətləndirmiş, müharibə iştirakçılarına və onların ailələrinə daim diqqət və qayğı göstərmişdir.

Bu gün bu nəcib işi uğurla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ölkəmizin veteranlarına həssas münasibəti cəmiyyətimiz tərəfindən rəğbətlə qarşılanır. Veteranlarımızın sosial vəziyyətinin daha da yaxşılaşdırılması, onlara və onların ailələrinə qayğı həmişə olduğu kimi bu gün də dövlətimizin diqqət və nəzarətindədir.

***Hörmətli Tofiq müəllim!***

Sizi bir daha bu əlamətdar tarix münasibətilə səmimi qəlbdən təbrik edir, doğma Azərbaycanımızın daha da qüdrətlənməsi və çiçəklənməsi, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması naminə dəyərli fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar diləyirəm.

***Hörmətlə,***

***Sahil Babayev,***
***Azərbaycan Respublikasının***
***Əmək və Əhalinin Sosial Müdafiəsi naziri***

**Azərbaycan Respublikası Müharibə,**
**Əmək və Silahlı Qüvvələr Veteranları**
**Təşkilatının sədri cənab ehtiyatda olan**
**general-polkovnik Tofiq Ağahüseynova**

***Hörmətli Tofiq müəllim,***

*Sizi və rəhbərlik etdiyiniz kollektivin əməkdaşlarını Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yaradılmasının **30-cu ildönümü** münasibətilə səmimi qəlbdən təbrik edirəm!*

*Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş veteranlara dövlət qayğısı siyasəti bu gün uğurla davam etdirilir.*

*Faşizmə qarşı mübarizədə, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin müdafiəsində iştirak etmiş müharibə veteranlarının, həmçinin cəmiyyətin müxtəlif sahələrində uzun müddət fəaliyyət göstərmiş əmək veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması, onların mənzil, nəqliyyat və digər problemlərinin həll edilməsi məqsədilə həyata keçirilmiş dövlət proqramları nəticəsində ciddi nailiyyətlər qazanılmışdır.*

*Respublika Veteranlar Təşkilatı veteranların sosial müdafiəsinin gücləndirilməsi, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində məqsədyönlü fəaliyyət göstərir. Veteranların ölkəmizin ictimai həyatında fəal iştirakı, onların milli – mənəvi dəyərlərimizin təbliğatına verdikləri töhfələr hər zaman yüksək qiymətləndirilir.*

*Respublika Veteranlar Təşkilatı fəaliyyətə başladığı gündən milli dövlətçilik ideologiyasının təbliğinə, beynəlxalq veteran təşkilatları ilə əlaqələrin qurulmasına və veteran hərəkatının səmərəliliyinin artırılmasına mühüm töhfələr vermişdir. Təşkilatın təqdirəlayiq və mühüm nailiyyətlərlə zəngin fəaliyyəti Sizin rəhbərliyiniz altında uğurla davam etdirilir.*

***Hörmətli Tofiq müəllim,***

*Bir daha Sizi və Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının üzvlərini **bu əlamətdar** gün münasibəti ilə təbrik edir, ölkəmizin tərəqqisi naminə fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram!*

***Hörmətlə,***

***Səfərbərlik və Hərbi Xidmətə Çağırış***
***üzrə Dövlət Xidmətinin rəisi***

***general-leytenant — Arzu Rəhimov***

**Председателю общественного объединения «Организация ветеранов войны, труда и Вооруженных Сил Азербайджанской Республики»
Генерал-полковнику Агагусейнову Т.Я.**

**Уважаемый Тофиг Ягубович!
Уважаемые ветераны!**

Примите искренние поздравления и наилучшие пожелания по случаю 30-летия организации ветеранов войны, труда и Вооруженных Сил Азербайджанской Республики.

Мы высоко ценим активное участие Вашего общественного объединения ветеранов в общественно-политической жизни страны, разработке государственных нормативных актов и программ по защите интересов ветеранов всех категорий, улучшении их материального положения, жилищных условий, медицинского, культурного и других видов обслуживания, патриотическом воспитании населения, в первую очередь молодежи.

Особо хотелось бы отметить вашу деятельность по развитию и укреплению дружбы народов республик бывшего Советского Союза, которая стала одной из главных составляющих Победы советского народа в Великой Отечественной войне. Мы высоко ценим героический вклад азербайджанского народа в разгром немецко-фашистских захватчиков, 75-ю годовщину которого мы вместе будем отмечать в 2020 году.

Общественное объединение ветеранов Азербайджана оказывает постоянное и целенаправленное содействие утверждению высоких нравственных и духовных ценностей азербайджанского народа, сохранению и приумножению славных боевых, военных и трудовых традиций старших поколений. Значительный вклад вносит ваша организация в борьбу с проявлениями терроризма, политического экстремизма и национализма, в разоблачение фальсификаторов нашей общей истории.

Организация ветеранов войны, труда и Вооруженных Сил Азербайджанской Республики принимает активное участие в деятельности Международного союза «Содружество общественных организаций ветеранов (пенсионеров) независимых государств» по укреплению мира и безопасности народов, упрочению международных связей государств, входящих в СНГ.

От всей души желаю Вам крепкого здоровья, большого человеческого счастья и благополучия, дальнейших успехов в Вашем благородном труде на благо старшего поколения Республики Азербайджан, укреплении братской дружбы и тесного сотрудничества между народами стран нашего Содружества.

*С глубоким уважением,
Председатель
Координационного совета* — *А. Сорокин,
Адмирал флота*

Город-Герой Москва • октябрь 2018 года

---

Международный союз
## “Наследники Победы”

### Поздравление
### с 30-летним Юбилеем
### ОРГАНИЗАЦИИ ВЕТЕРАНОВ ВОЙНЫ, ТРУДА И ВООРУЖЕННЫХ СИЛ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Уважаемые ветераны, соратники, друзья!**

Примите искренние поздравления с Юбилеем и наилучшие пожелания от многонационального состава Союза граждан и организаций по сохранению историко-культурного наследия «Международный Союз «Наследники Победы».

Со словами глубочайшей признательности за Ваш труд, который всегда будет служить примером профессионализма, нравственности, верности долгу и беззаветного служения Отечеству, желаем крепкого здоровья, благополучия, активного долголетия и успехов в Ваших благородных делах!

Президент
Международного Союза
«Наследники Победы» — Калякин В.В.

Москва,
10 октября 2018 года.

---

**МЕЖДУНАРОДНЫЙ СОЮЗ ОБЩЕСТВЕННЫХ ОБЪЕДИНЕНИЙ ВЕТЕРАНОВ
«БОЕВОЕ БРАТСТВО»**

Московская обл., 141407, г. Химки, ул. Панфилова, д. 19, стр. 4
тел.: 8 (499) 518-05-77, e-mail: voovbb@yandex.ru

№ 10/4-МС — «12» октября 20 18 г.

Председателю Азербайджанской
Республиканской организации
ветеранов войны,
труда и вооруженных сил
генерал-полковнику
Т. Я. Агагусейнову

Уважаемый Тофик Ягубович!

От всего сердца поздравляю Вашу организацию и всех ее членов со славным юбилеем - тридцатилетием со дня основания.

Забота о ветеранах является одной из первоочередных задач любого цивилизованного общества. Ведь эта забота является, с одной стороны, благодарностью ветеранам за их заслуги и, с другой стороны, очевидным посылом молодежи, что их заслуги также не будут забыты.

Позвольте от лица Международного союза общественных объединений ветеранов «Боевое братство» и от себя лично пожелать Вам здоровья, процветания и успеха в Вашей важной работе.

С уважением,

Председатель Международного союза
общественных объединений ветеранов
«Боевое братство»
Герой Советского Союза — Б.В. Громов

---

*Председателю Общественного объединения « Организация ветеранов войны, труда и Вооружённых сил Азербайджанской Республики»
Агусейнову Тофик Ягубовичу*

*Уважаемый Тофик Ягубович*

*От имени Общественного Объединения «Организация ветеранов Республики Молдова» примите искренние поздравления с Международным Днём пожилого человека и пожелания лично Вам , Вашей ветеранской семье , всем людям «третьего возраста » отличного самочувствия, сил и здоровья , душевного равновесия , больше светлых и радостных дней .*

*Для нас, и в свою очередь молодому поколению, мы стремимся быть примером и подтвердить, что «Поколение XX столетия- Гордость и Честь» для каждого независимого государства- ранее союзной республики, входившей в состав Великого Советского союза.*

*Такой была история, и её обязаны знать, уважать , делать выводы , чтобы живя в своём независимом государстве, стремиться формировать благополучное . интеллигентное , добропорядочное общество.*

*И такая благородная миссия отведена нам - членам ветеранских организаций. входящих в Международный Союз «Содружество организаций ветеранов (пенсионеров) независимых государств! Выполнить её достойно самая важная задача на сегодня, на завтра и на будущие десятилетия, когда эстафета добрых дел будет в руках молодых патриотов- Наследников Победы.*

*С уважением*

*Председатель
Общественного Объединения «Организация ветеранов Республики Молдова»
Депутат Парламента Республики Молдова* — *Алла Мироник*

# Respublika Veteranlar Təşkilatının fəaliyyəti Ümümmilli lider Heydər Əliyev prinsiplərinə sadiqliyin tərənnümüdür



Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan bu təşkilat nəinki xalqımızın qəhrəmanlıqlarla dolu tarix kitabına rəşadətli səhifələr yazmış və canını bu ölkənin yolunda qurban vermiş igid oğlan və qızlarımızın xatirəsini yaşadır, eyni zamanda, gələcək nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində respublikamızın müvafiq strukturları ilə birlikdə çiyin-çiyinə fəaliyyət göstərərək həlledici rol oynayır. Bu gün Respublika Veteranlar Təşkilatının bu alicənab fəaliyyəti onlarla orta və ali məktəblərdə təhsil alan müxtəlif səpkili müəssisələrdə çalışan və hərbi hissələrdə qulluq edən gəncləri əhatə edir. Bu fəaliyyətin mərkəzində duran məqam isə hamının ən böyük arzusu olan - Qarabağın qaytarılmasının təmin edilməsidir. Böyük bir simfoniyaya bənzəyən bu fəaliyyətin ilk notları Vətənə sədaqəti, xəlqiliyi, düşmən qarşısında qorxmazlığı, cəmiyyətimizə yabançı olan ünsürlərlə barışmazlığı, bir sözlə, Heydər Əliyev prinsiplərinə sadiqliyi tərənnüm edir. Bununla da Təşkilat bütün istiqamətlər üzrə mübarizənin ön sıralarında bərqərar olaraq hörmətli prezidentimiz İlham Əliyevə köməklik göstərən ən böyük qüvvələrdən birinə çevrilmişdir. Bu müqəddəs işinizdə Sizə uğurlar arzulayırıq.

Respublika Veteranlar Təşkilatının bütün üzvlərini 30 illik yubiley münasibətilə səmimi qəlbdən təbrik edir, can sağlığı, uzun ömür arzulayırıq.

*Şamil Süleymanov,*
*Azərbaycan Respublikası Xüsusi Xidmət Orqanların Veteranlar Birliyinin İdarə Heyətinin sədri, polkovnik*

# Veteranların həmrəyliyi hər zaman gərəkdir

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin imzaladığı Veteranlar haqqında qanunla xalqımıza xas olan yaşlı nəslə, müharibə və əmək veteranlarına böyük hörmət və qayğıkeş münasibət ənənələri dövlət siyasəti səviyyəsinə qaldırılmışdır. Möhkəm təməl üzərində qurulmuş bu dövlət siyasəti ölkə prezidenti cənab İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilir. Azərbaycanda məqsədyönlü və ardıcıl şəkildə həyata keçirilən fəal sosial təminat və pensiya siyasəti sayəsində əmək və xidməti fəaliyyətini başa vurmuş bütün vətəndaşlarımız kimi, polis veteranlarının da təqaüdü ildən-ilə artır, onların maddi təminatı getdikcə yaxşılaşır.

Daxili İşlər Nazirliyinin Veteranlar Şurası Respublikanın aparıcı Veteranlar Təşkilatlarından biridir. Şura ətrafında çoxsaylı polis veteranlarını birləşdirərək Respublikada ictimai asayişin təmin edilməsinə, əmin-amanlığın qorunub saxlanılmasına öz töhvəsini verir. Şura Daxili İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərməkdədir və Respublikanın bir sıra dövlət orqanları, yerli təşkilatlarla əməkdaşlıq edir. Əməkdaş olduğu ən yaxın təşkilatlardan biri Respublika Veteranlar Təşkilatıdır. Nazirliyin Veteranlar Şurası Respublika Veteranlar Təşkilatı ilə hər zaman çiyin-çiyinə fəaliyyət göstərir, Şuranın üzvləri, veteranları qarşıya qoyulan vəzifələri ləyaqətlə yerinə yetirilməsi üçün öz bilik və bacarıqlarını hər daim tam səfərbər etməyə nail olmuşlar, əldə olunan uğurları illər keçdikcə daha da möhkəmlənmişlər.

Bu gün cəmiyyətimizin hər bir üzvünü narahat edən narkomaniya ilə mübarizə və digər bu kimi məsələlərlə bağlı tədris ocaqlarında kütləvi tədbirlər həyata keçirir, xüsusən də gənc nəsl qarşısında çıxışlar edərək müasir gəncliyin düçar olduğu bəlalardan, yaranacaq gələcək fəsadlardan söhbət açaraq onları maarifləndirirlər.

Eyni zamanda DİN-in Veteranlar Şurasının tədbirlər planına "Gənclərin milli vətənpərvərlik tərbiyəsi" mövzusunda müxtəlif regionları əhatə edən veteranların iştirakı ilə gənclərlə görüşləri də daxildir. Görüşlər zamanı polis orqanlarının rəhbərləri, icra hakimiyyətinin nümayəndələri, ayrı-ayrı ictimai birliklərin, o cümlədən ağsaqqallar şurasının təmsilçiləri də vətənpərvərlik hissinin böyüməkdə olan nəslə aşılanmasının, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən olduğunu gənclərin diqqətinə çadırırlar. Bununla yanaşı bütün həyata keçirilən tədbirlər respublikanın kütləvi informasiya vasitələrində, radio, televiziya və qəzetlərində geniş formatda işıqlandırılaraq görülmüş işlər daha çox insan



kütləsinə təqdim olunmuş olur.

Nazirliyin Veteran Şurası üzvləri və veteranlarını daima diqqət mərkəzində saxlayaraq, onlara qayğını heç zaman əsirgəmir. İstefada olan əməkdaşların yubileylərinin qeyd edilməsi, veteran hərəkatında iştirakı nəzərə alınaraq onların əməyinin qiymətləndirilməsi məsələləri diqqətdə saxlanılır. Uzun müddət daxili işlər orqanlarında məsul vəzifələrdə qüsursuz xidmət etmiş, qanunçuluğun və hüquq qaydalarının təmin olunmasında çoxillik səmərəli fəaliyyəti və gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasında layiqli əməyi olan üzvlərin zəhməti hər daim istər Nazirliyin Veteranlar Şurası, istərsə də Respublika Veteranlar Təşkilatı tərəfindən qiymətləndirilir. Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, veteranlar təşkilatının işində fəal xidmətlərini nəzərə alaraq, müxtəlif şəhər-rayon polis orqanlarının veteranlar şuralarının sədrləri Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının "Fəxri Fərman"ları ilə dəfələrlə təltif edilmişlər. Ümumilikdə son 3 ildə daxili işlər orqanlarının 24 nəfər veteranı Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatı tərəfindən "Fəxri Fərman", daha 9 nəfəri isə müxtəlif medallarla təltif edilib.

Repsublika Veteranlar Təşkilatını yaranmasının 30 illik Yubileyi münasibəti ilə Polis veteranları adından Təşkilatın sədri general-polkovnik Tofiq Ağahüseynovu və onun kollektivini, eləcə də, bütün veteranları təbrik edirəm, gələcəkdə də əməkdaşlığımızın davam etdiriləcəyinə, yeni-yeni töhvələr əldə edəcəyimizə inanıram.

*Fərhad Süleymanov,*
*DİN Veteranlar Şurasının sədri, ehtiyatda olan polis polkovniki*

# Canlı tariximiz-Respublika Veteranlar Təşkilatı



Respublika Xatirə Kitabı Redaksiyası apardığı araşdırmalarda müxtəlif təşkilatlarla əməkdaşlıq edir, qəhrəman döyüşçülərimizin keçdiyi şərəfli döyüş yollarında kəsişən müxtəlif ölkələrə ezamiyyətlər təşkil etməklə bir daha həmin vətən övladlarının yazdığı qəhrəmanlıq salnaməsini araşdırır. Azərbaycan Respublikasının şanlı qəhrəmanlıq tarixini özünün bu günə qədər çap olunmuş 16 cildində və bundan sonra işıq üzü görəcək digər cildlərində əbədiləşdirəcək Respublika Xatirə Kitabı Redaksiyasına bu müqəddəs işində ən çox yardımçı olan təşkilatlardan biri vətənimiz Azərbaycanın qəhrəmanlıq salnaməsinin canlı şahidi və iştirakçısı, müharibə veteranlarının müqəddəs ocağı olan Respublika Veteranlar Təşkilatıdır.

Gənc nəslin nümunə götürdüyü, keçdikləri şərəfli və müqəddəs döyüş yolunun iştirakçısı olan insanları - hər biri canlı tarix olan bu qəhrəman insanları öz sıralarında birləşdirən Respublika Veteranlar Təşkilatı yenə də vətənimiz Azərbaycanın həqiqətlərinin dünyaya çatdırılması uğrunda əzmlə, cəsarətlə, bütün güclərini səfərbər edərək çalışmaqdadır. Azərbaycan Respublikası Veteranlar Təşkilatının Vətən uğrunda canından keçən döyüş yoldaşlarının xatirəsinin əbədiləşdirilməsi işində böyük bir səbrlə apardığı araşdırmalarda Respublika Xatirə Kitabı da öz töhfələrini verməkdə davam edir. Gənc nəslin maariflənməsi, tariximizin qan yaddaşına yazılmış hadisələri, vətən övladlarının göstərdiyi qəhrəmanlıqların gələcək nəsillərə ötürülməsində böyük iş aparan Respublika Veteranlar Təşkilatı yorulmaq bilmədən öz fəaliyyətini davam etdirərək şanlı tariximizin abidəsi sayılan Respublika Xatirə Kitabının hər cildinin çap olunaraq işıq üzü görməsinə fədakarlıqla yardım edir. Bu il yaranmasının 30 illiyini qeyd edən Azərbaycan Respublikası Veteranları Təşkilatı vətənimizin qəhrəmanlıq tarixinin canlı şahididir. Respublika Xatirə Kitabı Təşkilatı olaraq həyata keçirdiyimiz bütün araşdırmalar zamanı bizə böyük və əvəzsiz yardımını əsirgəməyən bu təşkilata, onun sıralarında əyilməz vüqarla birləşən veteranlarımıza cansağlığı arzulayır, daim mübariz və əyilməz iradələriylə gələcək nəsillərin yoluna işıq tutmalarını diləyirik.

*Nəzakət Məmmədova,*
*Respublika Xatirə Kitabının baş redaktoru*

# Veteranlar ictimai-siyasi proseslərdə və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində fəal iştirak edirlər

Respublika Veteranlar Təşkilatının sədri, general polkovnik Tofiq Ağahüseynov və təşkilatın sədr müavini, polkovnik Cəlil Xəlilov Şəki şəhərində Şəki və ətraf rayonların veteran təşkilatlarının nümayəndələri ilə görüş keçiriblər.

Müharibə, əmək veteranlarının, ziyalıların və yerli dövlət orqanlarının nümayəndələrinin iştirak etdikləri görüşdə veteran təşkilatlarının fəaliyyəti, onların qarşısında duran vəzifələr və yerli icra hakimiyyəti orqanları ilə birgə işin daha da səmərəli təşkilində bu təşkilatlara lazımi köməkliyin göstərilməsi və sair məsələlər müzakirə edilib.

Şəki Şəhər Veteranlar Təşkilatının sədri Mustafa Əhmədov tədbirdə çıxış edərək görülən işlər, veteran təşkilatının fəaliyyətinin daha da canlandırılması, xüsusilə gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi sahəsində qarşıda duran vəzifələr, digər planlar barəsində ətraflı məlumat verib. Qeyd edib ki, ölkəmizin hər yerində olduğu kimi, Şəkidə də veteranlara dövlət tərəfindən diqqət və qayğı göstərilir. Şəki Şəhər Veteranlar Təşkilatında yaradılmış şərait yüksək səviyyədədir. Veteranlar ictimai-siyasi proseslərdə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində fəal iştirak edirlər. Onlar daim xalqımıza, dövlətimizə sadiqdir və bunu əməlləri ilə göstərir və hər zaman göstərəcək.



Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov veteranların qarşısında duran vəzifələrdən və gənc nəslin vətənpərvərlik tərbiyəsində onların daha yaxından iştirak etmələrinə dair tövsiyələrini verib.

Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov ölkəmizdə müasir, güclü ordunun qurulması, eləcə də Respublika Veteranlar Təşkilatının ölkə həyatında yaxından iştirakı barədə məlumat verib. O, Şəkinin, eləcə də ətraf rayonların ziyalı və veteranlarının bu işlərdə rolunu yüksək qiymətləndirib.



Çıxış edən veteran və ziyalılar bundan sonra da veteran hərəkatının gücləndirilməsi üçün səy göstərəcəklərinə əminliklərini bildiriblər.

Sonra Tofiq Ağahüseynov və təşkilatın sədr müavini Şəkinin qəhrəmanlıq simvolu sayılan Əhmədiyyə Cəbrayılovun və oğlu Mikayıl Cəbrayılovun yaşadıqları ev muzeyinə gələrək onların həyat və fəaliyyətlərini əks etdirən eksponatlarla tanış ediliblər. Bu insanların gənc nəslə nümunə olan qəhrəmanlıqlarının tanıdılması üçün lazımi tədbirlərin həyata keçirilməsinin zəruriliyi vurğulanıb.

Səfər çərçivəsində Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovla veteranların görüşü də keçirilib. Elxan Usubov veteranlara diqqət və qayğı göstərilməsinin, onların sosial problemlərinin həllinin qarşıda duran əsas vəzifələrdən biri kimi səciyyələndirib. Veteranların gənclərin tərbiyəsində, ümumən rayonun ictimai-siyasi həyatında yaxından iştirakına xüsusi önəm verildiyini bildirib. Tofiq Ağahüseynov Şəkinin veteran hərəkatında ən qabaqcıl rayonlardan biri olduğunu diqqətə çatdırıb. Şəhər Veteranlar Təşkilatının dövlət və yerli orqanlarla əməkdaşlığının gələcəkdə daha yüksək səviyyəyə qaldırılacağına inamını ifadə edib və veteranlara göstərilən diqqət və qayğıya görə təşəkkürünü bildirib.

# Astara Rayon Veteranlar Təşkilatı 30 illik təcrübə ilə gələcəyə inamla addımlayır

1941-1945-ci illər Böyük Vətən müharibəsində alman faşizmi üzərində möhtəşəm qələbədən 74 il ötür. Bu böyük qələbədə Azərbaycan xalqının ön və arxa cəbhələrdə göstərdikləri qəhrəmanlıq və fədakarlığın misilsiz rolu olmuşdur. Dəhşətli müharibədə çoxlu qurbanlar verilsə də, təsəlli və fəxr doğuran hal odur ki, bəşəriyyət faşizm taunundan xilas edilmişdir. Bir həqiqəti söyləmək vacibdir ki, müharibə illərində həmçinin qazanılan qələbənin təmin edilməsində Azərbaycandan göndərilən neftin, ön cəbhədə vuruşan igid Azərbaycan oğullarının hünəri də həll edici rol oynamışdır.

Böyük Vətən müharibəsi dövründə Astaralılar da alman faşistlərinə qarşı qəhrəmanlıqla döyüşmüşlər. 5612 nəfər Astaralı döyüşən ordu sıralarına yollanmış, onlardan 1064 nəfəri döyüşdə həlak olmuş, 827 nəfəri itkin düşmüşdür. Sağ qalanların əksəriyyəti döyüşlərdə yaralanaraq evlərinə əlil kimi qayıtmışlar. Ziya Bünyadov, İlya Kaverin və Mirzə Cəbiyev Sovet İttifaqı Qəhrəmanı adına, 2 nəfəri-Ağahəsən Nəhmətov və Rəhman Hətəmov "Şöhrət" ordeninin hər 3 dərəcəsinə layiq görülmüşlər. Dövlətimiz tərəfindən həlak olmuş müharibə veteranlarının ailələrinə, bu gün də sıralarımızda olan müharibə iştirakçılarına, arxa cəbhədə fəal çalışmış insanlara xüsusi diqqət və qayğı göstərilir. Rayonumuzun 9 kəndində Böyük Vətən müharibəsi iştirakçılarının xatirə kompleksləri, rayonun mərkəzindəki Qəhrəmanlar xiyabanı, bu xiyabandakı büstləri, şəhərin mərkəzindəki Ana abidəsi, məktəblilərin, gənclərin,ümumiyyətlə bütün rayon əhalisinin unudulmaz əbədi ziyarət yerinə çevrilib.



Ümummilli lider Heydər Əliyev 1969-1982-ci illərdə və 1993-2003-cü illərdə Azərbaycana rəhbərlik etdiyi dövrlərdə Böyük Vətən müharibəsi veteranlarına həmişə böyük diqqət və qayğı göstərmiş, onların igidliklərini yüksək qiymətləndirmiş, sosial vəziyyətlərini yaxşılaşdırmaq üçün mühüm tədbirlər görmüşdür. Rayonumuzun veteranları, müharibə iştirakçılarının ailələri, ulu öndər Heydər Əliyevin diqqət və qayğısını minnətdarlıq hissi ilə xatırlayır, onun əziz xatirəsini qəlblərində əbədi yaşadırlar. Ümumilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı-möhtərəm Prezidentimiz cənab İlham Əliyev müharibə veteranlarının, onların ailələrinin, həmçinin arxa cəbhədə fədakarlıqla çalışmış insanların sosial vəziyyətini yaxşılaşdırmaq üçün ardıcıl və əhəmiyyətli tədbirlər görür.

Müharibə veteranları rayonumuzun ictimai siyasi həyatında, keçirilən tədbirlərdə fəal iştirak edirlər. Respublika veteranlar təşkilatının yaranması, veteranların sosial iqtisadi, əmək və qanunla müəyyən edilmiş digər hüquqların qorunmasına, gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsinə, onları igid, qəhrəman yetişdirmək vacib məsələlərdən biri hesab olunur.Ona görə də veteranlar təşkilatı icra hakimiyyəti və digər təşkilatlarla birlikdə məktəblərdə, pedaqoji kollecdə görüşlər keçirir. Astaralı gənclər müharibə veteranlarının göstərdikləri tövsiyələrə əməl edərək Vətən qarşısında müqqəddəs borclarını layiqincə yerinə yetirirlər.

Veteranların doğum günlərində onların evlərinə gedərək rayon icra hakimiyyəti başçısının təbriki və hədiyyəsi onlara təqdim olunur, müharibə və əmək veteranlarını bir yerə yığıb onlarla çay süfrəsi arxasında səmimi söhbətlər aparılır. Keçirilən bütün tədbirlər yerli "Astara" və "Azərbaycan Veteranı" qəzetində işıqlandırılır. Astara rayon veteranlar təşkilatı qarşıda duran vəzifələrin yerinə yetirilməsi istiqamətində aparılan tədbirlər bu gün məqsədyönlü şəkildə davam etdirilir və veteranlarımız onlara göstərilən etimadı doğrultmağa çalışırlar.

Respublika Veteranlar Təşkilatı və eləcə də, hər bir rayon veteranlar təşkilatları üçün 2018-ci əlamətdardır. Veteranları və bütün qəbildən olan veteranları ətrafında toplayan Respublika Veteranlar Təşkilatını 30 illik yubiley münasibəti ilə səmimi-qəlbdən təbrik edirəm.

*Rafiq Əliyev,*
*Astara Rayon Veteranlar Təşkilatının sədri*

# Sumqayıt şəhər Veteranlar Təşkilatı qabaqcıllar sırasındadır




1987- ci ildə Respublika Veteranlar Təşkilatının təsis edilməsi ilə Azərbaycanın əksər rayonlarında Veteranlar Təşkilatı yaradıldı. Lakin 1980-ci illərdə ölkədə yaranan xaos, hərc-mərclik Veteranlar Təşkilatının fəaliyyətinə də öz təsirini göstərdi. Alman faşizmi üzərində 9 May Qələbəsinin bayram günü kimi qeyd edilməsinin məqsədəuyğun sayılmaması, müharibə veteranlarının o dövrdə aldıqları orden-medalların qeyri-məqbul olması və s. ilə Veteran hərəkatına ciddi mənfi təsirlər idi.

1992-ci ildə Respublika Veteranlar Təşkilatının Ədliyyə Nazirliyindən qeydiyyata alınmasına baxmayaraq təşkilatımıza münasibət yenə də dəyişməmişdir. Lakin Ulu öndər Heydər Əliyevin yenidən rəhbərliyə qayıtması ilə Veteranlar Təşkilatının fəaliyyəti bərpa olunmuş, veteranlara münasibət dəyişmiş və bu istiqamətdə məqsədyönlü addımlar atılmış, xaosun Veteranlar Təşkilatının fəaliyyətinə göstərdiyi mənfi təsirlər yavaş-yavaş aradan qaldırılmışdır.

Sumqayıt Veteranlar Təşkilatı da öz işini 1994-cü ildə qəbul olunmuş "Veteranlar haqqında" Azərbaycan Respublikası Qanunu əsasında qurmuşdur, Sumqayıt veteranlarına da dövlət qayğısı bərpa edilmiş, onlara münasibət yüksək səviyyəyə qaldırılmışdı.

Son dövrlərdə isə Zakir Fərəcovun şəhərimizə İcra başçısı təyin olunması ilə şəhərimizdə, eləcə də Veteranlar Təşkilatında bir çox yeniliklər yaratdı. Veteranlarımıza göstərilən qayğı bizi daha da yaxşı işləməyə ruhlandırdı, şəhərimiz isə öz simasını dəyişdi, gözəlləşdi, müasirləşdi.

Müstəqilliyini bərpa etmiş dövlətimizin ideologiyasının, həmçinin azərbaycançılıq, dövlətçilik, doğma yurda bağlılıq, eyni zamanda gənclər arasında hərbi vətənpərvərlik ruhunun təbliğ olunmasına böyük ehtiyac duyulur. Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir. Sumqayıt da bugünümüz və sabahımızın təcəssümü olan sağlam düşüncəli, millətini-xalqını sevən gənclər yetişdirir. Hər bir gənc vətənpərvər olmalıdır. Bu, sadəcə orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq, azərbaycançılığı qoruyub saxlamaq deməkdir. Heç kimə sirr deyil ki, mənəviyyat olmayan yerdə milli-mənəvi dəyərdən, vətənpərvərlikdən belə söhbət gedə bilməz. Müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük vəzifə düşür. Bu vəzifəni isə yalnız vətənini sevən, onun tərəqqisinə çalışan və onun azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilər. Veteran Təşkilatımız da bu istiqamətdə gənclərlə bağlı xeyli işlər görməkdədir. Respublika Veteranlar Təşkilatının yaranmasının 30 illiyi ilə bağlı Sumqayıt Veteranlar Təşkilatı məktəblərdəki 10-11-ci sinif şagirdləri, institut tələbələri, kolleclərdəki gənclər ilə vətənpərvərlik, doğma yurda bağlılıq, milli-mənəvi dəyərlərimizə hörmət etmək ruhunda maarifləndirici görüşlər təşkil edir, bütün bu aparılan işlər və keçirilən tədbirlər təşkilatımızın həmişə diqqət mərkəzində olub. Məqsədimiz gənclərimizin sağlam təfəkkürünün inkişafı və milli ideologiyasına sahib çıxacaq bir vətənpərvər şəxsiyyət kimi formalaşmağa dəstək göstərməkdir. Milli-mənəvi dəyər xalqımızın ən böyük sərvətidir. Sumqayıt Veteran Təşkilatı olaraq biz də milli -mənəvi dəyərlərə söykənərək xalqımızın elmini, mədəniyyətinin inkişafına və onun ümumbəşər dəyərlərlə zənginləşməsinə əhəmiyyət veririk. Çünki Azərbaycan vətəndaşlarını azərbaycançılıq ideyası və milli-mənəvi dəyərlər birləşdirir.

Sumqayıt Veteranlar Təşkilatı yeniyetmə və gənclərin toplaşdığı Gənclər və İdman Baş idarəsi, Gənclər evləri, məktəb və kolleclər, kitabxanalar kimi geniş auditoriyalarda "Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasının 100 illiyi", "Erməni təcavüzkarlarının ölkəmizə qarşı soyqırımının 100 illiyi", "Mənim şəhərim və məktəbim", "Müstəqil dövlət quruculuğunda gənclərin üzərinə düşən vəzifə", "Gənclərdə Dövlətçilik hissinin təbliği ", "Mübariz İbrahimov öz maraqlarını vətən yolunda qurban verdi","Milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaq üçün veteranların gənclərə tövsiyəsi", "Şuşa alınmaz qala idi" , "Sumqayıt şəhərindəki Səfərbərlik və hərbi xidmətə çağırış şöbəsində veteranların gənclərə tövsiyəsi" və.s. silsilə maarifləndirici tədbirlər keçirmişdir.

Bundan əlavə Sumqayıt Veteranlar Təşkilatı şəhər veteranlarının asudə vaxtının səmərəli keçməsi üçün müxtəlif qısa müddətli layihələr işləyib hazırlayır. Veteranların müxtəlif yerlərə gəzintisini, onların asudə vaxtlarının səmərəli və xoş keçməsini təşkil edir.

Xeyirxah iş, xeyirxah əməl insanı ucaldır və cəmiyyətdə nüfuzlu insana çevirir. Gəlin hamımız xeyirli işlər görək.

Leyla Qasımzadə
Respublikanın Əməkdar müəllimi, Sumqayıt şəhər Veteranlar Təşkilatının sədri

# MASALLI RAYON VETERANLAR TƏŞKİLATI - 30 İLDƏ



Masallı rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı Respublika Veteranları Təşkilatının tərkib hissəsi kimi 30 il öncə yaradılmış və rayonun ən çoxsaylı ictimai təşkilatlarından biri kimi fəaliyyət göstərməyə başlamışdır.

Ötən əsrin 70-80-cı illərində Respublikamızın bir çox rayonlarında olduğu kimi Masallıda da Rayon Veteranları Təşkilatı yaradılmışdır. Təşkilatın ilk sədri Böyük Vətən müharibəsində özünün xüsusi igidliyi və şücaəti ilə fərqlənmiş, Lenin ordeni, eləcə də bir sıra digər döyüş orden və medalları ilə təltif olunmuş Atabala Həzi oğlu Hacıyev olmuşdur. Ulu öndər Heydər Əliyevin müharibə veteranlarına göstərdiyi diqqət və qayğının bu rayonda daşıyıcısı kimi Atabala Hacıyev təşkilata sədrliyi dövründə səmərəli fəaliyyət göstərmiş, veteranların cəmiyyətdə layiqli mövqe tutmasına köməkliyini əsirgəməmişdir.

1990-cı illərdə Respublikanı bürüyən xaos və itaətsizlik, özbaşınalıqlar Masallı rayonundan da yan keçməmişdir. Bu çətin dövrlərdə Masallı veteranları rayonda ictimai sabitliyin pozulması hallarının daha da dərinləşməsinə mane olmuş, hətta bu dövrdə qondarma Talış Muğan respublikasının yaradılması çağırışlarına kəskin şəkildə etiraz etmişlər. Özünü qondarma Talış Muğan respublikasının rəhbəri adlandıran Əlikrəm Hümbətovun silahlı quldur dəstəsi Masallı rayon İcra hakimiyyətini mühasirəyə alanda o dövrdə Veteranlar Şurasının sədri olmuş Atabala Hacıyev bir qrup ağsaqqal veteran, ziyalılarla birlikdə onun qabağına çıxıb və rayonu tərk etməsini tələb edib. Müəyyən gərginliklər yaşansa da lakin veteranlar öz tələblərindən dönməmiş, onların geri çəkilməsinə nail olmuşlar. Ulu öndərin veteranlarımıza qarşı göstərdiyi diqqət və qayğı möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cənabları tərəfindən ardıcıl olaraq yerinə yetirilir. Rayonumuzda da II Dünya müharibəsi veteranları rayon icra hakimiyyətinin daimi diqqətindədir. Rayonun icra başçısı Rafil Hüseynovun səyi nəticəsində Masallı rayonu müharibə veteranlarına daima diqqət və qayğı göstərilir, onların təkcə yubileyləri deyil, hətta hər il doğum günləri qeyd olunur, ən əsası da onlara lazımi bütün köməkliklər olunur. Veteranlar onlara göstərilən qayğını əz qala gündəlikdə də hiss edirlər. Müharibə veteranlarından əlillik dərəcəsi olanların hər biri fərdi minik avtomaşını ilə təmin edilmişdir. İldə bir dəfə hərtərəfli tibbi müayinədən keçirilmələri üçün onların evlərinə getmək ənənə halını almışdır. Bütün milli bayramlarda hər bir veteranla yaşadığı ünvanda rayon rəhbərliyi səviyyəsində görüş keçirilir, bir sözlə, veteranların üzləşdiyi hər hansı bir problem dərhal öz həllini tapmış olur. Masallı rayonu ərazisində 9 nəfər müharibə iştirakçısı - Atabala Hacıyev, Cənnət Teymurov, Mürşüd Hüseynov, Qılman Zeynalov, Simran Quliyev, Qulamhüseyn Məmmədov, Əlibala Kişiyev, Oruc Bədəlov, Məmmədhəsən Abbasov - yaşayır.

Veteranların sosial şəraitinin yaxşılaşdırılması ön planda olsa da, Veteranlar Təşkilatı olaraq Masallı rayonunda da ötən dövr ərzində gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması ilə bağlı ardıcıl işlər görülmüşdür.

Görülən işlərin əsasını tam orta məktəblərin 9-11-ci sinif şagirdləri və gənc nəslin digər nümayəndələri ilə Böyük Vətən müharibəsi iştirakçılarının görüşlərinin təşkili, həqiqi hərbi xidmət keçməkdən ötrü gənc əsgərlərin Milli Ordu sıralarına yola salınma mərasimlərində iştirak etmə və digər tədbirlərin keçirilməsi təşkil edir. Bu görüşlərin əsas məqsədi işğal altında olan torpaqlarımızın geri qaytarılmasına mənəvi hazırlığın təmin edilməsi nəzərdə tutulmuşdur. 2016-cı il Aprel döyüşlərində, Naxçıvan bölgəsində Milli Ordumuzun rəşadətlə vuruşub erməni quldur dəstələrinin darmadağın etməsi və torpaqlarımızın bir hissəsinin geri qaytarılması münasibətilə Qələbə sevinci gənclərlə qeyd edilib, bundan başqa isə veteranlarımızın iştirakı ilə şəhidlərimizin mütəmadi olaraq anım tədbirləri keçirilməkdədir. Masallı rayon Veteranlar Təşkilatının təşkil etdiyi tədbirlər bunlarla bitmir.

Rayonda elə bir ictimai-siyasi tədbir keçirilmir ki, veteranlar ora dəvət olunmasın, onlara söz verilməsin, fikirləri, məsləhətləri dinlənilməsin. Rayon ərazisində seçkilərdə bütövlükdə veteran fəallığı təmin olunmuşdur. Bununla bağlı rəhbərlik tərəfindən Rayon Veteranlar Təşkilatı dəfələrlə Fəxri Fərman və qiymətli hədiyyələrə layiq görülüb. Masallı rayon Veteranlar Təşkilatı Ağsaqqallar Şurası, Ziyalılar Birliyi, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri İctimai Birliyi, Yeni Azərbaycan Partiyası Rayon Təşkilatı ilə yaxından əməkdaşlıq edir. Hazırda RVT-nin sədri YAP rayon Təşkilatının Şura üzvüdür.

Masallı rayon veteranları da müstəqilliyimizin əldə olunması, onun möhkəmləndirilməsi sahəsində də həmişə rəhbərliyin arxasında olub, öz dəstəklərini əsirgəməyiblər.

Məmmədağa Şiriyev
Masallı RVT-nin sədri, Qarabağ müharibəsi veteranı, istefada olan polis polkovnik-leytenantı

# Bakının daşnak-bolşevik işğalından azad olunmasının 100 illiyi Respublika Veteranlar Təşkilatında qeyd edilib

*Sentyabrın 12-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Bakının daşnak-bolşevik qüvvələrinin işğalından azad olunmasının 100 illiyi ilə bağlı tədbir keçirilib.*



Tədbirdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov Azərbaycanın Milli Ordusunun Qafqaz İslam Ordusu ilə birlikdə Bakını daşnak-bolşevik qüvvələrinin işğalından azad etməsinin 100 illiyinin yaxın günlərdə qeyd olunacağını deyib. O bildirib ki, Azərbaycanın əsgər və zabitləri də türk qardaşlarımızla birlikdə Bakının düşməndən təmizlənməsində şərəflə döyüşüblər. Biz bu gün onları minnətdarlıq hissi ilə xatırlayırıq.

Respublika Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov qeyd edib ki, Bakının daşnak-bolşevik işğalından azad olunması həm qürurverici hadisədir, həm də Türkiyə-Azərbaycan qardaşlığının bariz nümunəsidir. 1918-ci il sentyabrın 15-də Azərbaycan Əlahiddə Korpusu Qafqaz İslam Ordusu ilə birlikdə qanlı döyüşlər apararaq Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas edib. Azərbaycan və türk əsgərlərinin, zabitlərinin igidliyi nəticəsində qısa müddətdə Bakı əsasən ermənilərdən ibarət olan daşnak-bolşevik qüvvələrindən azad olunub.

Qeyd edilib ki, Stepan Şaumyan 1918-ci ilin mart-iyul aylarında Bakı Sovetinə tabe olan daşnak silahlı dəstələrindən və bolşevik hərbi birliklərindən istifadə edərək Azərbaycanın Bakı, Şamaxı, Quba və başqa qəzalarında qırğınlar törədib, yüzlərlə yaşayış məskənini dağıdıb, dinc insanları amansızcasına qətlə yetirib. Həmin dövrdə Gəncə üzərinə yürüş edən düşmən qüvvələrinin qarşısının alınması üçün öz hərbi gücü yetərli olmadığından Azərbaycan nümayəndələri kömək məqsədilə Türkiyəyə, o zamankı Osmanlı dövlətinə müraciət ediblər. Bu müraciətə müsbət cavab verən qardaş dövlət Qafqaz İslam Ordusunu 1918-ci ilin mayında Azərbaycan ərazisinə köməyə göndərib. Burada general Əliağa Şıxlinskinin başçılıq etdiyi müsəlman milli korpusu ilə birləşən Nuru Paşanın rəhbərlik etdiyi həmin ordunun 1918-ci il iyunun əvvəllərində artıq 15 min əsgər və zabiti var idi.

Bildirilib ki, Bakı Sovetinin ixtiyarında olan, mütləq əksəriyyəti ermənilərdən ibarət hərbi birləşmələr iyunun 12-də Kürdəmiri işğal edib və Göyçaya yaxınlaşıblar. Göyçay ərazisində qanlı döyüşlər iki həftədən çox davam edib. Müqavimətə baxmayaraq, Türkiyədən göndərilən əlavə qüvvələr və Azərbaycan könüllüləri düşməni məğlub ediblər. Qafqaz İslam Ordusunun Göyçay ətrafındakı qələbəsi hadisələrin gedişini tamamilə milli hökumətin xeyrinə dəyişib, Azərbaycanın şərq hissəsi, o cümlədən Bakının daşnak-bolşevik işğalından azad edilməsi üçün ilk zəmin yaradıb. Daşnak-bolşevik birləşmələrini darmadağın edən Qafqaz İslam Ordusunun Bakı istiqamətində başlatdığı azadlıq yürüşündə növbəti şanlı qələbə iyulun 20-də mühüm strateji məntəqə olan Şamaxı şəhərinin azad edilməsi olub. Bakını əldə saxlamaq üçün müxtəlif qüvvələrdən kömək uman daşnak və bolşeviklər buna nail ola bilməyiblər. Qafqaz İslam Ordusunun avqustun 5-dən Bakı üzərinə intensiv hücumları qarşısında dayana bilməyən həmin qüvvələr geri çəkilib. 1918-ci ilin sentyabrında yaranmış beynəlxalq vəziyyət Bakının tezliklə azad olunmasını zəruri edib. Cümhuriyyət rəhbərləri Bakının azad edilməsi üçün ardıcıl iş aparıblar. Peşəkar Qafqaz İslam Ordusu güclü müqavimətə baxmayaraq, sentyabrın 15-də dörd mindən çox əsgər və zabiti şəhid vermək bahasına da olsa, Bakını düşmənlərdən azad edib. Bu tarixi günü qeyd etdiyimiz bir vaxtda hər birimizin qəlbindən Azərbaycan əsgərinin eyni sevinci, qüruru bizə Qarabağı erməni işğalından azad etməsi ilə yaşatması arzusu keçir. Biz inanırıq ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yaradılmış güclü ordumuz buna nail olacaq. Müasir Azərbaycan Ordusu düşmən işğalındakı ərazilərimizi azad etməyə, ölkənin ərazi bütövlüyünü bərpa etməyə tam qadirdir. 2016-cı ilin Aprel döyüşləri ordumuzun gücünü və döyüş əzmini bir daha aydın göstərdi, işğalçıya Azərbaycan əsgərinin qələbə əzmini nümayiş etdirdi. Biz veteranlar erməni işğalı altındakı Azərbaycan torpaqlarının şanlı ordumuz tərəfindən azad ediləcəyinə inanır və bu müqəddəs işdə ordumuzun yanında olduğumuzu bildiririk.

Tədbirdə Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşı Rasim Mirzəyev, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tarix kafedrasının müdiri Firdovsiyə Əhmədova, Prezident yanında Bilik Fondunun sektor müdiri Hacı Nərimanoğlu və başqaları çıxış edərək Bakının düşmənlərdən azad olunması ilə bağlı 1918-ci ilin aprel-sentyabr aylarında Cümhuriyyət xadimlərinin fəaliyyətindən, Qafqaz İslam Ordusunun şücaətindən danışıblar.



Qeyd ediblər ki, bu tarix Türkiyə və Azərbaycan arasında qardaşlıq münasibətlərinin və birliyin nümunəsidir. Bakının daşnak-bolşevik qüvvələrinin işğalından azad edilməsinin 100 illiyinin qeyd olunması tariximizin geniş auditoriyaya, xüsusilə də gənclərə aydın çatdırılması və cəmiyyətdə təbliğ olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Çıxış edənlər Azərbaycan Ordusunun öz sələflərinin yolunu şərəflə davam etdirdiyini və yaxın gələcəkdə qəhrəman Azərbaycan əsgərinin üçrəngli bayrağımızı hazırda işğal altında olan bütün ərazilərimizdə dalğalandıracağına inandıqlarını bildiriblər.

# "Sülh göyərçini" aksiyası çərçivəsində Bakıda tədbir keçirilib

*İkinci Dünya müharibəsində alman faşizmi üzərində qələbənin 75-ci ildönümünə hazırlıq çərçivəsində Respublika Veteranlar Təşkilatı "Qələbənin Varisləri" Beynəlxalq İttifaqı ilə birlikdə Binəqədi rayonundakı 83 və Səbail rayonundakı 189 nömrəli orta məktəblərdə dünyanın 60-a yaxın ölkəsinin qoşulduğu "Sülh göyərçini" mənəvi birliyə çağırış aksiyası çərçivəsində yığıncaq keçirib.*



Tədbirdə İkinci Dünya müharibəsi veteranları, Binəqədi və Səbail rayonlarının icra hakimiyyətlərinin nümayəndələri, hər iki təhsil ocağının şagird və müəllim kollektivi iştirak ediblər.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək deyib ki, İkinci Dünya müharibəsində alman faşizmi üzərində qələbəyə mühüm töhfələr vermiş Azərbaycanın bu beynəlxalq tədbirdə iştirak etməsi təbiidir. Azərbaycan xalqı qələbə naminə 340 minə yaxın övladını itirib, on minlərlə soydaşımız yaralanıb, minlərlə soydaşımız itkin düşüb. Xalqımız bu müharibədə qazanılan qələbəyə böyük töhfələr verib. Bu gün keçirilən tədbirdə məqsəd həm də dünyaya sülh mesajları çatdırmaqdır. Belə tədbirlər ölkəmizin 20 faiz torpaqlarının hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq baxımından da əhəmiyyətlidir.

Sonra veteranlar, məktəb direktorları və müəllimlər, Respublika Veteranlar Təşkilatının əməkdaşları çıxış edərək tədbirin əhəmiyyətindən, Azərbaycan dövlətinin sülhsevər siyasətindən, xalqımızın müharibə vəziyyətində yaşamasına baxmayaraq, daim sülh tərəfdarı olmasından danışıblar.

Sonra şagirdlər İkinci Dünya müharibəsi, Qarabağ və digər müharibələrdə həlak olmuş, itkin düşmüş azərbaycanlıların xatirəsinin yad etmək üçün hazırlanmış şarları havaya buraxıblar.

Tədbir iştirakçıları dünyanın 60-dan çox ölkəsinin təmsilçilərinin qoşulduğu videokonfrans vasitəsilə ölkəmizin dünyada sülhün bərqərar olması ilə bağlı mövqeyini və xalqımızın əmin-amanlıq istəklərini bir daha bəyan ediblər.

Sonda məktəblilərin ifasında sülh haqqında mahnı təqdim olunub.

# Vətənpərvər gənclik - işıqlı gələcəyin təminatçısı

***Vətənpərvərlik ən ali hiss olub insanın öz Vətəninə sevgi və sədaqətindən, doğma Vətənin siyasi, iqtisadi və mədəni tərəqqisi naminə çalışmaqdan və onun müdafiəsinə hər an hazır olmaqdan ibarətdir. Doğma yurda sədaqət həm də mövcud çətinliklərdən qorxmayıb vətəndaşlıq mətanəti göstərmək deməkdir.***

Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşıb. Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir. Biz şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edirik. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Əliağa Şıxlinski, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə kimi igidlərimizin şəxsi nümunəsi bizə əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bu xalqın layiqli davamçıları - Azərbaycan gəncliyi bütün dövrlərdə ölkənin taleyüklü məsələlərinə münasibətdə həlledici məqamlarda öz sözünü deyib. Ölkəmiz müstəqillik əldə etdikdən sonra gənc nəslin üzərinə daha böyük məsuliyyət düşür. Müstəqilliyin əldə edilməsində olduğu kimi, onun qorunub saxlanmasında da gənclərin rolu danılmazdır. Gənc nəsil həm də xalqın əsrlər boyu yaratdığı ənənələri, milli mədəniyyəti yaşadır və gələcək nəsillərə ötürür. Onlar dövlətin həm bu günü, həm də gələcəyidir.





Bu gün Azərbaycanda həyata keçirilən gənclər siyasətinin, gənclərə göstərilən diqqət və qayğının əsasında ölkə üçün layiqli vətəndaş və sağlam nəslin yetişdirilməsi dayanır. Müstəqilliyin üçüncü onilliyini yaşayan Azərbaycana məhz milli şüura malik vətənpərvər gənclər lazımdır. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın gənclər siyasəti də məhz bu amala xidmət edir. Ulu öndər müstəqil düşüncə tərzinə sahib vətənpərvər nəslin yetişdirilməsini dəfələrlə qürur hissi ilə vurğulayaraq demişdir: “Məni hədsiz dərəcədə sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün xətalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var”.

Azərbayacan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı Ulu öndərin siyasi kursuna daim sadiq olmuşdur. Məhz bu müdrik siyasətdən doğan vətənpərvər gəncliyin yetişdirilməsi təşkilatın ən ümdə vəzifəsidir. Respublika Veteranlar Təşkilatı vətənpərvərliyin təbliğ edilməsində gənc nəslə çatdırılmasında fəal işlər görür. Gənclər, məktəblilər arasında maarifləndirmə işi aparır, veteranlarımızın təcrübəsini gənc nəslə çatdırır. Bu yolda Təşkilatın üzvləri-veteranlar, ziyalılar əllərindən gələni etməyə daim hazırdı.





Müstəqilliyimizin ilk illərində veteranların cəbhəyə getməsi Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəsi vətənə olan sonsuz məhəbbətdən doğubdur. Bu insanların əziyyətinin bəhrəsi olan Təşkilat yarandığı ilk gündən vətənpərvərlik tərbiyəsinin təbliğini özünün əsas fəaliyyət istiqaməti hesab etmişdir. Təşkilatın üzvlərinin Azərbaycan ordusunun formalaşmasında müstəsna xidmətləri olmuşdur. Öz bilik və təcrübələrini gənclərlə bölüşmüş, lazım gəldikdə isə səngərlərdə müsəlləh əsgər kimi dayanmışlar.

Vətənpərvər gəncliyin yetişdirilməsi, onların hər sahədə vətəni layiqincə təmsil etməsi respublikamızın parlaq gələcəyindən xəbər verir. Vətənimizin keçmişinin şahidi olan tarixi abidələrə hörmət bəsləmək, xalqımızın tarixində milli qürur hissi yaradan, mərdlik simvoluna çevrilən tarixin əhəmiyyətini dərk etmək, qəhrəmanların döyüş yolunu öyrənmək, onların Vətən haqqında ibrətamiz kəlamlarını qavrayıb dərk etmək gənclərdə vətənpərvərlik hissinin dərin iz buraxmasında müstəsna rol oynayır. Bunun üçün gənclik üzərinə düşən vəzifələri dərindən dərk etməli, veteranların əməyindən yüksək səviyyədə bəhrələnməlidir.



Təhsil ocaqlarında, hərbi hissələrdə, Gənclər evlərində və digər müəssisə, təşkilatlarda yeniyetmə və gənclərlə görüşlərin keçirilməsi veteranların bu sahədə yorulmaz və əzmli fəaliyyətinin əyani sübutudur. Respublika Veteranlar təşkilatı son illərdə vətənpərvərlik istiqamətindəki tədbirləri daha geniş fürsət almışdır. Təşkilatın üzvləri gənclərlə keçirilən hər bir görüşdə iştirak edir, çıxışlar edir, onlara vətəni sevməyin ən ali hiss olduğunu aşılayırlar. Təşkilat mütəmadi olaraq Müdafiə Nazirliyi, Sərhəd Qoşunları, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları, Təhsil Nazirliyi, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə birgə layihələr həyata keçirir.

Yorulmaq bilməyən veteranlar sağlam gəncliyin-sağlam gələcəyin təmin edilməsi üçün əllərindən gələni əsirgəmirlər. Onlar əsl vətənpərvərlik, vətən sevgisi nümayiş etdirirlər. Bunlar bizə əsas verir ki, qətiyyətlə deyək: Veteranların ürəyi həmişə xalqımızla, millətimizlə birgə döyünür...

# Azərbaycan veteran hərəkatının inkişaf tarixində sosial məsələlərin həlli

Azərbaycan veteran hərəkatının inkişaf tarixi, həm Sovetlər dövründə, həm də Respublikamızda müstəqillik bərpa edildikdən sonra, bütünlüklə Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Veteran Təşkilatlarının fəaliyyət istiqamətinin, veteranların sosial, əmək, mədəni-məişət qayğılarının həlli Ulu öndərin 28 iyun 1999-cu ildə imzaladığı "Veteranlar haqqında" Qanunda öz əksini tapmış, 2 may 1995-ci ildə imzaladığı qanunda isə "9 may – faşizm üzərində Qələbə günü" Respublikamızın bayramları sırasına daxil edilmişdir.

Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş veteranlar haqqında dövlət siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu, dövlət başçısının müntəzəm olaraq imzaladığı qanunlar milli proqramlar və sərəncamlarda öz əksini tapır.

Respublikamızın Prezidenti İlham Əliyev mütəmadi olaraq müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinətlərin, 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təyin edilməsi, 1941-1945-ci illər İkinci Dünya müharibəsində iştirak etmiş döyüşçülərə bərabər tutulan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması, (20 yanvar hadisələri ilə əlaqədar əlil olanlara təqaüdün təyin edilməsi barədə;) şəhid ailələrinə təqaüdün təyin edilməsi, Əfqanıstanda Sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olmuş, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilmiş hərbi qulluqçuların ailələri üçün təqaüdün təyin edilməsi barədə və s. çox saylı sərəncamlar imzalayır.

Bununla bərabər Respublikanın Prezidenti İlham Əliyev hər il 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayır.

1998-2018-ci illər ərzində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyi tərəfindən dövlət hesabına 5740 veteran avtomobillə təmin olunmuşdur. O cümlədən, Respublika Veteranlar Təşkilatının vəsadəti ilə 1082 İkinci Dünya müharibəsi içtirakçılarına avtomibil verilmişdir.

Həmin illər ərzində 110 nəfər Böyük Vətən müharibəsi iştirakçıları və əlillərinin yaşayış şəraiti yaxşılaşdırılaraq mənzil ilə təmin olunmuşlar.

Müharibə iştirakçıları və əlillərinin sağlamlıq durumu Respublika Veteranlar Təşkilatının Sosial Müdafiə şöbəsinin diqqət mərkəzindədir. Belə ki, hər il 230-250 İkinci Dünya müharibə iştirakçısı həkim müayinəsindən keçirilir, ehtiyacı olanlar sağlamlıq ocaqlarında müalicə üçün göndərişlərlə təmin olunurlar.

Prezidentimizin 15 sentyabr 2015-ci il sərəncamına əsasən Böyük Vətən müharibəsi əlilləri və iştirakçıları imtiyazlı dərman vasitələri ilə təmin olunurlar.

Veteranların sosial məsələlərinin yaxşılaşdırılması üçün Prezidentimizin çoxsaylı sərəncamları olmuşdu. Bu qayğı aşağıda qeyd olunan sərəncamlarda özünü göstərir:

- 2 iyul 2012-ci il tarixli sərəncamı ilə "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına (müharibə illəri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilsin və onun aylıq məbləği 55 manat müəyyən edilmişdir;
- 23 aprel 2013-cü il tarixli sərəncam ilə Qələbənin 68-ci ildönümü ilə əlaqədar 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına 700,0 manat məbləğində, BVM-də həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirilmiş xüsusi birləşmələrin işçilərinə, Böyük Vətən müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsinin iştirakçılarına 300 manat məbləğində birdəfəlik maddi yardım verilmişdir;
- 17 mart 2014-cü il tarixli sərəncamı ilə "müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün aylıq məbləği artırılaraq 1-ci qrup müharibə əlillərinə 150 manat, 2-ci qrup müharibə əlillərinə 130 manat, 3-cü qrup müharibə əlillərinə 100 manat müəyyən edilmişdir;
- 17 mart 2014-cü il fərmanı ilə "Əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə 1-ci qrup əlilliyə görə sosial müavinət alanlara Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilmiş və onun aylıq məbləği 60 manat müəyyən olunmuşdur;
- 30 aprel 2014-cü il tarixli Fərmanı ilə hörmətli Prezidentimiz 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, Leninqrad şəhərinin mühasirəsi şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli sərəncamının 1-ci hissəsində təsdiq edilmiş Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2014-cü il may ayının 1-dən artıraraq 55 sözlərini 100 sözləri ilə əvəz etmişdi;
- 2014-cü ilin avqust ayında Prezidentimizin fərmanı ilə Əfqanıstanda sovet qoşunlarının tərkibində Beynəlmiləl borcunu yerinə yetirərkən həlak olmuş elan edilən hərbi qulluqçuların ailələri (valideynləri, dul arvadları) üçün ayda 200 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilmişdi;
- 1991-ci ildə 1997-ci ilin yanvar ayınadək 217 nəfər müharibə əlillərinə dövlət hesabına pulsuz avtomobil verilmişdir;
- 75 nəfər Böyük Vətən müharibəsi iştirakçıları mənzillə təmin olunublar.

Prezidentimizin veteranlara göstərdiyi qayğı daima davam edir.

Bu gün təşkilatda qayğıkeş, əqidəcə sağlam, dövlət və ümumxalq mənafeyini öz şəxsi maraqlarından üstün tutan, savadlı, Azərbaycan Respublikasının Konstitusiyasının, "Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanunu, veteranların həyat və fəaliyyəti, sosial və hüquq mühafizəsi ilə əlaqədar digər qanunları və hüquqi sənədləri kamil bilən, onlara əsaslanaraq veteranların daima gündəlik qayğılarını əməli olaraq operativ sürətdə həll etməyi bacaran, böyük həyat yolu keçmiş, təcrübəli, kadrlar fəaliyyət göstərir. Onların səyi nəticəsində veteranlar, o cümlədən, uzunömürlülərin problem və çətinlikləri, öyrənilib tədbirlər görmək üçün planlar hazırlanır.

Respublika Veteranlar Təşkilatı bütün dövlət orqanları, bilavasitə Respublika Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyi, Səhiyyə nazirliyi, Müdafiə nazirliyi, rayon icra hakimiyyətləri ilə birlikdə veteranların sosial və hüquqi müdafiəsinin təmin edilməsi, fiziki və ruhi sağlamlıq, fəal uzun ömürlülük üçün şərait yaradılması, yaşayış sahəsi ilə təmin edilməsi, hər bir veterana zəruri tələbatını təmin edən səviyyədə müxtəlif növ sosial xidmətlər göstərilməsində, əmək hüququnun heç bir məhdudiyyət qoyulmadan, sağlamlıq vəziyyətinin imkan verdiyi səviyyədə həyata keçirilməsi, ictimai faydalı fəaliyyətində iştirak etmək üçün lazımi şərait yaradılmasında, veteran təşkilatlarının fəaliyyətinə kömək göstərilməsi, veteranların bütün cəmiyyətə və xüsusən onlara aid siyasətin və proqramların hazırlanması və həyata keçirilməsi işinə bilavasitə cəlb edilməsində planlı tədbirlər həyata keçirir. Xüsusi müzakirələrdən sonra müvafiq dövlət orqanlarına təkliflər verilir.

Təşkilat Veteranların potensialından istifadə etməklə onların cəmiyyətin sosial-iqtisadi və siyasi həyatında iştirakının təmin edilməsinə istiqamət verir.

- Kütləvi informasiya vasitələrində veteranların problemlərini işıqlandırmaq məsələlərini qaldırır;
- Müharibə və əmək veteranlarının yaşayış səviyyəsinin yaxşılaşdırılması sahəsində çalışır, bu barədə icra hakimiyyətlərinə, Əhalinin əmək və sosial müdafiə nazirliyi qarşısında vəsadətlər qaldırır;

Hörmətli Prezidentimiz Ali Baş Komandan İlham Əliyev Ulu öndərin veteranlar barədə dövlət siyasətini davam etdirir. Dövlətin bu diqqət və qayğısı sayəsində veteran hərəkatı ölkəmizin ictimai-siyasi həyatının ən fəal qüvvələrinin birinə çevrilib, təşkilat da bu qayğıya öz əməli işi ilə cavab verir.

Veteranların sosial müdafiə şöbəsinin 2018-ci il üçün tərtib edilmiş iş planında dövlətin veteran siyasətinin istiqamətlərinə dair təkliflərin hazırlanması və bu istiqamətin həyata keçirilməsində iştirak edilməsi nəzərdə tutulmuşdur. Şöbənin veteranların sosial müdafiəsinə dair normativ hüquqi aktlardan irəli gələn vəzifələrin həyata keçirilməsində və onların sosial müdafiə sisteminin təkmilləşdirilməsində öz səlahiyyətləri çərçivəsində iştirakı planlaşdırılmışdır. Bu məqsədlə Müstəqil Dövlətlər Birliyinin 9 dekabr 1994-cü il Sazişinin 2-ci maddəsində təsbit olunmuş "... Böyük Vətən müharibəsinin üçüncü qrup əlillərinə keçmiş SSR İttifaqı qanunvericiliyi ilə nəzərdə tutulmuş güzəştlərin 70 yaşına çatmış Böyük Vətən müharibəsi iştirakçılarına verilməsinin məqsədə uyğunluğunu etiraf etməsinin" 70 yaşına çatmış əlilliyi olmayan İkinci Dünya müharibəsi iştirakçılarına da şamil edilməsi barədə Azərbaycan Respublikası aidiyyatı orqanları qarşısında vəsadət qaldırılmışdır.

05 fevral 2018-ci il tarixdə 24 nömrəli məktubla Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinə istefaya buraxılmış Müdafiə, Daxili İşlər, Milli Təhlükəsizlik, Ədliyyə, Fövqəladə Hallar nazirlikləri və digər hərbi birləşmələrin veteranlarının pensiyalarının yenidən hesablanaraq "əmək pensiyalar haqqında" qanunun 37.3.1-ci maddəsinə 01 iyul 2017-ci il tarixdən edilmiş dəyişikliklərə əsasən, yaşa görə pensiya təyin olunmuş işləyən şəxslərin sığorta tutumunun indeksləşdirilməsinin onlara şamil ediləcəyi barədə məlumat verilməsi xahiş edilmişdir.

Şöbə Respublika Veteranlar Təşkilatının fəaliyyəti üçün zəruri olan məlumatların toplanmasında, öyrənilməsində, habelə proqramların, layihələrin hazırlanmasında iştirak edir. Təşkilatın yerli orqanlarının sosial məsələlər üzrə işinin təşkilinə metodiki və əməli köməklik göstərir, işdəki qabaqcıl təcrübəni öyrənir, rəhbərlik qarşısında təkliflər qaldırır.

Məqsədimiz müharibə veteranlarının xidmətini uca tutmaq, dövlətimizin müstəqilliyinin qorunub saxlanılması, onun inkişaf etdirilməsi, gənclərimizin vətənə sədaqət, hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsidir.

*Telman Babayev,*
*Veteranların sosial müdafiəsi şöbəsinin müdiri,*
*Əliş Əliyev,*
*Şöbənin aparıcı mütəxəssisi*

AZƏRBAYCAN VETERANI

# БЕССТРАШНЫЙ СЫН АЗЕРБАЙДЖАНА



**В истории есть даты, память о которых не стареющей болью живет в сердцах наших поколений. Для всех народов бывшего Советского Союза такая дата 22 июня 1941 года.**

День, когда началась жестокая война, навязанная Родине агрессором, и стала для всех народов Великой Отечественной войной. Огромная страна поднялась, как один человек, на смертный бой. Все - от мала до велика, без различия языка и национальности встали на защиту родной земли, на защиту Отечества.

Это была битва не на жизнь, а на смерть. В страну вторглись фашистские захватчики - враг, не знавший жалости и пощады. За его спиной была покоренная Европа. Перед ним был народ, порабощение которого означало прямой путь к мировому господству. И если это агрессору не удалось, то только потому, что на его пути встал советский человек, советский солдат.

Дни, когда отмечается 70 годовщина легендарного сражения за Сталинград мы с особой гордостью вспоминаем прославленного героя Родины, дважды Героя Советского Союза, гвардии генерал-майора Ази Ахадовича Асланова. Люди отдают ему глубокого уважения и благодарности ему и всем тем, кто принял на себя первый самый страшный удар врага. Наш народ вспоминает Ази Ахадовича и всех тех, кто не вернулся с войны, отдал жизнь за Отечество, и тех, кто умер от ран в послевоенное время. Народ помнит их, боевых друзей. Все они и сегодня с нами в боевом строю защитников Отчизны. Земной наш поклон героям минувшей войны!

Общенациональный лидер Азербайджана Гейдар Алиев неоднократно с большой теплотой говорил о заслугах Ази Асланова, особо подчеркивая, что его подвиг навсегда вписан в историю Родины на имя этого замечательного человека, знать свое дело так, как знал он, любить народ и родину так, как любил их Ази Асланов, и, как он, быть готовым пожертвовать во имя Отчизны жизнью, если потребуется.

Родился Ази Ахадович Асланов в 1910 году в городе Ленкорани. Впервые он увидел командира Красной Армии, когда ему было лет десять. - Юному Асланову так захотелось стать красным командиром, что в 1924 году он сумел добраться до Баку и поступить в Военно-подготовительную школу, затем успешно закончить Ленинградскую кавалерийскую школу. Служил в различных частях на Украине и в Белоруссии.

Война с фашистскими захватчиками застала капитана Асланова командиром танкового батальона в районе Львова. Первый бой он принял у населенного пункта Золочева. Потом участвовал в битве под Москвой. Оказавшись в окружении, капитан Асланов возглавил прорыв вражеского кольца и вывел не только подчиненные подразделения, но и другие части, в том числе 50 автомашин с боеприпасами. В том бою был ранен механик-водитель его танка. Тогда командир батальона сел за рычаги машины и повел бойцов в атаку, на прорыв.

Весной и летом 1942 года Асланов - заместитель командира танковой бригады. В битве под Сталинградом он - командир 55-го отдельного танкового полка, входившего в состав 2-й гвардейской армии Сталинградского фронта. В наступательных боях ярко проявились военно-организаторские способности подполковника Ази Асланова. 19 ноября 1942 года танковый полк перешел в наступление в районе озера Барманцак и за несколько часов боя вывел из строя и уничтожил 4 вражеских танка, 5 минометных батарей, одно тяжелое орудие, 3 пехотных роты и взял в плен свыше 700 гитлеровских солдат и офицеров. В тот же день танкисты Асланова, развивая наступление, освободили от фашистов село Плодовитое.

- 22 ноября 1942 года танкисты Асланова с боями вышли к поселку Советский и на следующий день встретились с войсками Юго-западного фронта, замкнув кольцо окружения вражеской группировки под Сталинградом. Но впереди были тяжелые бои. Полку Асланова предстояло отразить натиск врага из района поселка Котельникова, где были сосредоточены крупные силы противника. Гитлеровцы пытались деблокировать окруженную под Сталинградом группировку своих войск. У хутора Верхнекумский (ныне Советский Октябрьского района Волгоградской области) на пути противника встал стрелковый полк подполковника М.С. Диасамидзе и танкисты подполковника А.Асланова бесстрашно сражались с врагом.

Маршал Советского Союза А.И.Еременко в своих воспоминаниях писал: «Проявив изумительную стойкость и мужество в обороне, танкисты А.Асланова затем перешли в контрнаступление и за шесть дней боев уничтожили 45 вражеских танков, 26 орудий, 50 автомашин, свыше 2 тысяч фашистских солдат и офицеров, взяли в плен 700 гитлеровцев.

Работая над документальным фильмом «Генерал Ази Асланов», кинорежиссер Муса Багиров в Волгограде встретился с бывшим командиром танкового корпуса, в котором воевал Ази Асланов, с Героем Советского Союза, генерал-полковником В. Т. Обуховым. Он рассказал:

— Бригада Асланова стояла на опушке леса, неподалеку через речку были фашисты. Мы знали, что они готовятся к наступлению и надо было их встретить. Я приказал Асланову послать разведку,



о результатах доложить. Ушел он от меня поздно ночью. А утром услышал по радио знакомый голос: «Товарищ генерал! Виктор Тимофеевич! Деревня наша».

Сперва я не понял, о какой деревне идет речь. После его объяснения сразу же поехал в освобожденное село. Оказывается, взяв своего адъютанта и шофера, Асланов сам пошел в разведку. Уточнив расположение противника, сделав записи о его примерной силе, возвратился в бригаду. И утром атаковал немцев с двух фронтов.

На это он был мастер, фашисты никак этого не ожидали и, оставив много техники, бежали в панике. Асланову как генералу, рисковавшему собой, объявили взыскание, но за мужество представили к правительственной награде.

Ази Асланов творчески применял в боях положения военной науки, публиковал статьи об опыте боев с врагом. Одним из достоинств Ази Асланова было его умение воодушевлять бойцов. Его решимость, несгибаемая воля, личная доблесть и талант командира вдохновляли личный состав на героическую борьбу за победу над врагом.

В декабре 1942 г. газеты «Правда» и «Красная звезда» в передовых заметках, посвященных замечательному военному таланту и высокой воинской доблести Ази Асланова и М.Диасамидзе, призывали офицеров Красной Армии изучать опыт этих славных командиров, чтобы успешно командовать подчиненными им частями. 22 декабря 1942 года А.А.Асланов был отмечен присвоением ему звания Героя Советского Союза, а его полк был преобразован в гвардейский.

14 февраля 1942 года полк Асланова ворвался в Ростов-на Дону. Легендарным стал поход танкистов под командованием Асланова по тылам врага южнее Киева в ноябре 1943 года. В тех боях его гвардейцы уничтожили 3 вражеских танка, 174 орудия, много другой боевой техники. Летом 1944 года танкисты, под командованием Ази Асланова сыграли важную роль в освобождении Минска. В приказе Верховного Главнокомандующего войскам бригады была объявлена благодарность.

О доблестном командире танковой бригады ходили легенды. Как-то раз его видели, когда он руководил боем. Два дня назад танкисты сделали стремительный рывок к Березине, но мост, залатанный на скорую руку был непригоден для переправы тяжелых машин. Асланов не стал ждать когда наведут мост, он решил с ходу выбить немецкий гарнизон из Плешениц, который был виден в стереотрубу.

За период наступления танкисты увидели несколько селений, местечек и городков, которые фашисты, подобно Плешеницам, превратили в опорные пункты для борьбы с партизанами. Селец, Слобода, Бегомль, Зембин, Войстом, Ольковичи всюду стояли полицейские гарнизоны. Эти местечки и села были обнесены колючей проволокой в несколько рядов, высоким забором с дзотами на углах. Обычно за оградой сооружалась вышка или каланча, откуда можно было наблюдать, вести пулеметный огонь.

Так же выглядели и Плешеницы, от которых Асланова отделяли Березина и заболоченный берег. Узкие бойницы и амбразуры, массивные ворота, окованные листами брони, земляная насыпь между двумя рядами бревен.

Асланов решил с ходу захватить Плешеницы. Для этого ночью через Березину бесшумно переправили бронетранспортер, которым командовал гвардии старший сержант Алексей Коровниченко, а также одно орудие, два миномета и группу автоматчиков. Отряд тихо вышел к северной окраине местечка. Бронетранспортер захватил фашистский дот у перекрестка дорог в тот момент, когда мимо него двигался большой вражеский обоз. Красная ракета известила о том, что дот захвачен, а колонна фашистов расчленена. Минометчики открыли ураганный огонь по голове обоза. В то же время бронетранспортер вырвался на дорогу и на полном ходу помчался к хвосту обоза, расстреливая его в упор, давя повозки. Дерзость нападения ошеломила врага, и два легких немецких танка обратились в бегство. Все попытки фашистов пробиться по дороге на юг были пресечены.

На следующий день Ази Асланова видели на переправе через реку Вилия, юго-западнее Вилейки. На месте старого моста торчали обугленные сваи. Вилия здесь в разгар знойного лета неглубока—по грудь, и не очень широка. Неподалеку от места переправы проходила когда-то старая граница. Каменные пограничные столбы, много лет стоявшие без дела, пригодились: столбы уложили на дно реки, где поглубже. Иные водители сняли ремни с моторных вентиляторов (чтобы на свечи моторов не попали брызги) и, не дождавшись укладки подводной мостовой, пустились машинами вброд.





Вилия снова преградила бригаде дорогу на подступах к Сморгони. С опушки леса, где Ази Асланов устроил наблюдательный пункт, отлично видны были река, шоссе, идущее к разрушенному мосту, и поодаль от шоссе деревня Перевозы - будто все домики отбежали гурьбой от места боя в сторону, к тихому сосняку.

Ази Асланов долго молча стоял, не отнимая от глаз бинокль, потом так же молча уселся на траву и склонился над картой. По соседству, под хвойной кровлей укрылась радиостанция. Из машины доносился голос радистки.

Асланов торопливо сложил карту, взял автомат, лежавший на траве, крикнул: «Поехали!» и быстро зашагал к бронетранспортеру, уже на ходу засовывая карту в планшет и надевая фуражку.

Бронетранспортер вошел в реку в том месте, где дно было замощено четырехгранными каменными столбами. Разведчики предусмотрительно воткнули по обочинам настила шесты. Они играли роль бакенов, указывающих водителям фарватер.

Танкисты промчались по улицам горящей Сморгони. На западной окраине еще не затихла стрельба, а на улицах показались первые жители. Многие остались без крова, но лица погорельцев в ту минуту были счастливые - дожили, дождались!..

Окровавленная, истерзанная, замученная, но непокоренная, исполненная гордого достоинства, жаждущая мщения, воскресшая Беларусь встречала бойцов, которые шли к ней три долгих фронтовых года. Бойцов, которые бились за Беларусь под Москвой, под Смоленском, под Оршей и Витебском.

Продолжая свое победоносное продвижение, танкисты Ази Асланова 7 июля 1944 г. первыми ворвались в Вильнюс. В июле того же года за активное участие в освобождении города Шяуляй 35-й гвардейской танковой бригаде Ази Асланова было присвоено почетное наименование «Шяуляйской».

Осенью 1944 г. при прорыве фашистской обороны в районе Рижского бойцы Ази Асланова показали образцы высокого воинского искусства и отваги. Форсировав Западную Двину, 35-я гвардейская танковая бригада нанесла неожиданный удар по флангам уступавшего противника, перерезав ему путь к отступлению. Тем самым танкисты создали условия для окружения и пленения фашистских войск в этом районе.

В боях за освобождение Белоруссии и Прибалтики бригада Ази Асланова десять раз удостаивалась благодарности Верховного Главнокомандующего.

Бойцы 35-й гвардейской Шяуляйской танковой бригады глубоко уважали своего героического командира, Ази Ахадовича Асланова, любили его как родного отца. В составе бригады плечом к плечу сражались с фашистскими захватчиками: русские, украинцы, белорусы, азербайджанцы, грузины, узбеки, казахи и другие.

Начальник разведки бригады, полковник Н.Пронин в своих воспоминаниях писал о том, что в Прибалтике был получен приказ: во что бы то ни стало - освободить приморский городок, важный узел обороны фашистов.

Однако силы были неравны, немцы превосходили нас в технике и живой силе. Положение было сложное, но приказ есть приказ. В штабе много думали, предлагали разные планы, но Ази Асланов отверг все варианты. И, наконец, приказал готовить все машины, не только танки, но и грузовые, и мотоциклы, тягачи — словом, все, что есть. И чтобы обязательно во всех машинах исправно горели фары.

Глубокой ночью и по плану Ази Асланова легковые, грузовые машины и мотоциклы были расставлены между танками. И вдруг ночную темень прорезали огни десятков машин. С двух флангов и по фронту шла танковая лавина, ревели моторы. Казалось, танковый корпус пошел в атаку. Фашисты поспешно отступили. Так, почти без потерь, овладели наши этим населенным пунктом. Это была его тактика — наступать с флангов, ночью и неожиданно.

24 января 1945 года гвардии генерал майор А.А.Асланов героически погиб на поле боя.

В своем соболезновании азербайджанскому народу командование 1-м Прибалтийским фронтом писало: «Тернистый путь в боях за Родину прошел Ази Ахадович Асланов. Он, как подлинный богатырь, высоко пронес знамя победы от Крыма, Москвы, от Сталинграда до Днепра, сокрушительные удары его танков разгромили укрепления фашистской обороны, в боях за Белоруссию и Прибалтику.

Ази Ахадович во всей своей боевой практике, боевой жизни олицетворял героический дух азербайджанского народа. Светлая память о генерал-майоре А. Асланове будет жить в наших сердцах, в памяти всех воинов Первого Прибалтийского фронта...»

Гвардии генерал-майор А.А.Асланов похоронен в Баку. Памятники прославленному танкисту воздвигнуты в столице Азербайджана, на территории совхоза в Ленкоранском районе. Именем Ази Асланова названы: Дом офицеров в Баку, училище в Волгограде, школы в Баку и Волгограде. В Ленкорани создан Дом-музей Героя.

За бесстрашие, отвагу, мужество и боевое мастерство, гвардии генерал-майору Асланову вторично присвоено звание Героя Советского Союза, он удостоен многих боевых наград. Приказом министра обороны имя Ази Асланова навечно занесено в списки курсантов 1-й роты Бакинского Высшего Объединенного общевойскового командного училища.

При Бакинском Комитете ветеранов войны создан Комитет Памяти дважды Героя Советского Союза, гвардии генерал-майора А.А.Асланова, основная цель которого - вести работу по сохранению памяти о большом вкладе, внесенном Ази Ахадовичем в дело




разгрома фашистских захватчиков, по воспитанию на его славных традициях достойных защитников Родины, вести также активную пропаганду о Великой Отечественной войне и значительном вкладе в нее Азербайджанской Республики, по созданию уголков памяти прославленного генерала.

В настоящее время перед нами стоят ответственные задачи по освобождению наших земель от армянских захватчиков, обеспечению территориальной целостности Республики. Долг каждого гражданина страны приложить все силы и знания для укрепления Вооруженных Сил Азербайджанской Республики, призванных стоять на защите независимого государства.

# YAŞAYAN TARİXİMİZ: VETERANLAR

Respublika Veteranlar Təşkilatı yarananda onun başlıca vəzifəsi dövlətin bir sıra istiqamətlərdə apardığı siyasətə dəstək verilməsindən, gənclərin vətənpərvərlik, beynəlmiləlçilik ruhunda tərbiyəsindən, veteranların sosial müdafiəsinin və asudə vaxtlarının təşkili və digər məsələlərdən ibarət idi.

Müxtəlif istiqamətlərdə fəaliyyətini təşkil etmək üçün Respublika Veteranlar Təşkilatı yarandığı ilk günlərdən etibarən müvafiq tədbirlər görmüş, öz strukturunu, ştat vahidini bu fəaliyyətə uyğun qurmağa nail olmuşdur.




Respublika veteranlar təşkilatının yaranmasından 30 il keçir. Bütün bu dövr ərzində veteran təşkilatı və onun bütün üzvləri Azərbaycan xalqına, vətəninə və dövlətinə sadiq gəncliyin yetişməsində əlindən gələni edir və bundan sonra da edəcəkdir.

Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında nəşr olunan hər hansı bir çap məhsulunun böyük əhəmiyyəti vardır.

Bu baxımdan ilk növbədə Respublika Veteranlar təşkilatının orqanı olan "Azərbaycan Veteranı" qəzetinin böyük xidmətlərini qeyd etmək istərdim. Son illər onun maraqlı yazıları, yüksək poliqrafik keyfiyyətlə rəngli çap olunması, oxucuları cəlb edir. Qəzetin kollektivi müntəzəm olaraq müharibə və əmək veteranlarının maraqlı xatirələrini çap eləməklə gənclərin hərbi vətənpərvərlik ruhunun yüksəlməsinə, vətənə, xalqa və dövlətə olan məhəbbətlərin artırılmasına nail olur.

Yarandığı gündən çap məhsullarının nəşrinə xüsusi diqqət yetirən Respublika Veteranlar Təşkilatı yüzlərlə kitab, kitabçalar çap etdirmişdir. Onların arasında Yazıçı Hüseyn Abbaszadənin "General" romanı da var. Bu əsər Azərbaycan ədəbiyyatında İkinci Dünya müharibəsi mövzusunda yazılmış ən dəyərli ədəbi abidələrdəndir.

Yazıçı Hüseyn Abbaszadə xalqımızın fəxri, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı, istedadlı sərkərdə, 33 yaşlı general Həzi Aslanovun ağır döyüş yolunu, həyatını, yaddaqalan rəngarəng tarixi, bədii epizodlarla qələmə alaraq, maraqlı hadisələr və obrazlar qalereyası yaratmışdır. Ona görə də əsər qarşısına Həzi Aslanovu xalqına olduğu kimi tanıtmaq məqsədi qoyan yazıçıya da xalq sevgisi qazandırmışdır.

Azərbaycan xalqının qəhrəmanlığını, hərbi vətənpərvərlik ənənələrini tərənnüm edən tarixi salnaməni veteran təşkilatında əvəzsiz xidmətləri olan, «Azərbaycanın Levitanı" adını qazanmış Abdulla Qurbani "Azərbaycan veteranları tarixin qızıl səhifələrində" kitabında yazmışdır. Bu əsər qələmə alınmış müasir qəhrəmanlıq, şücaət və rəşadət dastanıdır. Kitabda II Dünya müharibəsindən sonra təsis edilmiş SSRİ-nin ilk veteranlar təşkilatının yaranmasından bu günədək Azərbaycanda veteran hərəkatının tarixindən, onun məqsəd və vəzifələrindən, apardığı məqsədyönlü bəşəri işlərdən söhbət açılır və bu fonda ötən illər Qarabağ müharibəsinin mənzərəsi gözlərimiz önündə canlanır.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilovun "Azərbaycan Veteranı: Böyük yol 30 il" kitabı 2017-ci ildə işıq üzü görmüşdür.

Arxiv, rəsmi dövlət sənədləri və dövrü mətbuata istinadən hazırlanmış kitabda Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yaradıldığı 30 ildə keçdiyi tarixi yolun ən mühüm məqamlarından bəhs edilir. Bu kitabın gənc nəslin azərbaycançılıq məfkurəsinə uyğun, vətənə, xalqa məhəbbət, öz tarixi keçmişinə hörmət ruhunda tərbiyə olunmasında, hər bir gəncin vətəndaş kimi formalaşmasında böyük əhəmiyyəti var.

Respublika Veteranlar Təşkilatı tərəfindən bəzi veteran təşkilatlarının Dövlət idarələri və ictimai təşkilatlarla birgə iş təcrübəsi kitabça şəklində çap olunmuş və bütün rayon veteranlar təşkilatlarında öyrənilib tətbiq olunmuşdur. Veteranlarımız ahıl yaşlarının zirvəsində olmağına baxmayaraq yorulmadan özlərinin yaddaşlarına həkk olunmuş döyüş səhnələrini qələmə alaraq öz əsərlərini çap etdirməklə gənclərdə hərbi vətənpərvərlik ruhunun yüksəlməsinə öz töhfələrini verməkdə davam edirlər. Bu yaxınlarda 97 yaşlı Müharibə veteranı Aleksandr Qritçenkonun və ehtiyatda olan polkovnik, respublika veteranlar təşkilatının sədr müavini Cəlil Xəlilovun 62-ci kitabı 938 səhifə həcmində "Xalqlar dostluğu və Qələbə" kitabı rus və Azərbaycan dillərində iqtisadiyyat üzrə fəlsəfə doktoru, Yazıçılar və Jurnalistlər birliklərinin üzvü Şəddat Cəfərovun redaktorluğu ilə nəfis şəkildə çap olunmuşdur.

Kitabda müəlliflər tarixi sənədlərdə xalqımızın qəhrəmanlıqlarından və xalqın qəhrəman əsgərlərinin ölkəmizin və Avropa xalqlarının faşizmdən xilas edilməsi naminə mübarizələrindən danışırlar. Müəllif və tərtibatçı Aleksandr Qritçenko və Respublika veteranlar təşkilatının kollektivi olmaqla "Qələbə və yaddaş kitabı Şəddat Cəfərovun redaktorluğu ilə çap olunmuşdur. Kitab Böyük Vətən müharibəsinin başlanmasının 75 illiyinə həsr olunmuşdur. "Qələbə və yaddaş kitabında Azərbaycan Respublikasının veteran təşkilatının yaranmasından və bu təşkilatın üzvlərinin Böyük Vətən müharibəsinin iştirakçılarından bəhs edilir. Məqsəd onların qəhrəmanlıqlarının təbliği və onların döyüş həyatlarının təkrarsız səhnələrini gələcək nəsillərə çatdırmaqdır. Kitab 638 səhifədən ibarətdir. Kitabın sonunda Bəxtiyar Vahabzadənin "Veteran marşı", Nikolay Xaritonovun "Qələbə Günü", Vladimir Vısotkinin "Qardaşlıq məzarları» və başqa vətən müharibəsinə həsr olunmuş şeirləri də verilmişdir.

Bu və başqa yüzlərlə çap olunan kitablarda xalqımızın müharibədə və arxa cəbhədə göstərdiyi misilsiz qəhrəmanlıqlarının tariximizi yazaraq gələcək nəsillərə çatdırır, onlarda hərbi-vətənpərvərlik ruhunun yüksəlməsinə xidmət edir.

*Şəddat Cəfərov,*
*Respublika Veteranlar Təşkilatının Rəyasət heyətinin üzvü*

# *Veteranlar sülhün və ədalətin carçısıdırlar*

Zəngin mədəniyyətə malik olan Azərbaycan cəmiyyəti öz mövcudluğu tarixində sosial həyatın müxtəlif sahələrinə dair proqressiv idarəetmə yollarından və ümumi birgəyaşayışın tənzimlənməsini təmin edən metod və vasitələrdən yararlanmışdır. Tarixən qardaşlıq cəmiyyətləri, xeyriyyə birlikləri və ağsaqqallıq qurumları kimi təşkilatlanma formaları mövcud olmuşdur. Müstəqillikdən əvvəlki dövrlərdə də veteran adını daşıyan insanlar ayrı-ayrı kütləvi təşkilatlarda təmsil olunur və öz zəngin təcrübələrini cəmiyyətlə bölüşürdülər.

Respublikamızda professional və ixtisaslaşmış veteran hərəkatının formalaşması müstəqil dövlətçiliyin yenidən doğulan şəfəqləri ilə eyni vaxta təsadüf etmişdir. Veteran sözünün etimologiyası ilk növbədə müharibə iştirakçısı olan qocaman döyüşçü, hər hansı bir sahənin köhnə, əməkdar işçisi, xadimi, hər hansı bir sahədə uzun müddət çalışmış, zəngin təcrübəsi olan şəxs, müharibə veteranı, əmək veteranı və sair. Qədim Romada isə xidmət müddətini bitirmiş əsgər. Romada yaşları ötmüş, xidmət müddəti başa çatmış döyüşçülərdən veteran hərbi dəstələri yaradılırdı ki, onlarda imperiyaya tabe olan şəhərlərdə asayişi qorumaqla məşğul olurdular. Belə ki, veteran hərəkatının tarixən kifayət qədər qədim olması onun cəmiyyətin vacib sütunlarından biri olmasına dəlalət edir.

Azərbaycanın müharibə veteranları çox böyük şanlı keçmişə malikdir. İstər qədim, orta əsrlər,istərsə də yeni dövrdə kifayət qədər qəhrəmanlıq səhifələri vardır. Çar Rusiyasında və eləcə də Sovetlər dönəmində azərbaycanlıların göstərdiyi rəşadət tarixi qəhrəmanlıq nümunələridir. Dünyanın müxtəlif ölkələrində II dünya müharibəsində Avropada faşizmə qarşı müqavimət hərəkatında "Azərbaycan" adı şərəflə yazılmışdır. Azərbaycanın döyüşən insanları hər bir zaman dostluq,sülh və ədalətin yanında olmuşlar. Müharibə veteranları ilə birgə əmək veteranlarının da böyük əməyi daim diqqət mərkəzində olmuş, təcrübəli, peşəkar insanların bilik və bacarığı cəmiyyətin sosial rifahına doğru istiqamətləndirilmişdir.

Respublika Müharibə və Əmək, Silahlı Qüvvələr Veteranları Təşkilatının yaranmasından 30 ildən bir qədər artıq vaxt keçmişdir. Bu müddət ərzində təşkilat şərəfli yol keçmiş və öz səmərəli fəaliyyəti ilə müstəqil milli dövlətçiliyimizin inkişafına dəyərli töhfələr vermişdir. Dövlət kursunun dəstəklənməsinə, onun beynəlxalq əlaqələrinin möhkəmlənməsinə bilavasitə dəstək verən veteranlar Ali Baş Komandanın göstərişlərinə daim hazır olduqlarını isbat etmişlər. Respublika Veteranlar Təşkilatı müasir dövrdə də öz iş prinsiplərini Ümummilli Lider Heydər Əliyevin ideya və prinsiplərinə uyğun olaraq qurmuşdur. Veteranlar hərəkatının dəyər kəsb etməsi və formalaşması məhz Ümummilli Liderin adı ilə bağlıdır.

Respublika Veteranlar Təşkilatı öz növbəsində gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, dövlətə sədaqət ruhunda yetişməsində əməli və səmərəli fəaliyyət göstərirlər.

Bu gün Azərbaycan gəncliyi veteranların keçdiyi şərəfli həyat yoluna nəzər salaraq onlardan özünə örnək götürə bilər. Şübhəsiz, cəsur, iradəli və zəngin təcrübəyə malik azərbaycan veteranının dəyərli həyat yolu gənclərimizə öz işıqlı sabahlarını qurmaq üçün çox şey söyləyə bilər.

Şəhla Qarayeva

*Baş redaktor*
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:** 1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu:** 012 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 1 manat 20 qəpik*
*Tiraj: 1290*